# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 15 İYUL 2021-Cİ İL / № 26 (1244)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU


## *Prezident İlham Əliyev:* "Biz bütün şəhidlərimizin qisasını döyüş meydanında aldıq və bununla fəxr edə bilərik"

**İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edib.**



Dövlətimizin başçısı şəhid ailələri və müharibə əlilləri ilə görüşüb.

Prezident İlham Əliyev görüşdə çıxış edərək şəhid ailələri və müharibə əlillərinə dövlət tərəfindən daim böyük diqqət göstərildiyini bildirib. Deyib ki, yeni salınmış yaşayış kompleksi də nəzərə alınmaqla, 10 min şəhid ailəsi və müharibə əlili dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin olunub və bu proses davam edir. Bununla bərabər, biz uzun illərdir Qarabağ qazilərini fərdi avtomobillərlə də təmin edirik. Bu gün də bir neçə avtomobil təqdim ediləcəkdir və bütövlükdə 7200 avtomobil verilib.

Prezident bildirib ki, bu gün müharibə dövründə evlərini itirmiş, namərd erməni atəşi nəticəsində yaxınlarını itirmiş mülki şəxslərin də problemlərini həll edirik: "İndi hər kəs, bütün dünya bilir ki, müharibə dövründə Ermənistan döyüş meydanında bizə qarşı müqavimət göstərə bilmədiyi halda mülki əhalini atəşə tutub, hərbi cinayətlər törədib, qadağan edilmiş silahlardan, o cümlədən ağ fosforlu bombalardan istifadə edib. Bu, artıq sübut olunub. Uzaqmənzilli ballistik raketlərdən istifadə edib və bunun nəticəsində 100-dən çox mülki şəxs həlak olub və minlərlə fərdi ev və fərdi sahibkarlıq obyekti dağıdılıb. Bu gün dağıntılara məruz qalmış bütün şəhər və rayonlarımızda quruculuq işləri gedir, yenə də dövlət xətti ilə yeni evlər tikilir, fərdi evlər tikilir və o evlər dağılmış əvvəlki evlərdən qat-qat keyfiyyətlidir".

**Dövlətimizin başçısı İkinci Qarabağ müharibəsində əlil olmuş şəxslərə də dövlət tərəfindən daim qayğı, diqqət göstərildiyini deyib: "Qazilərimizin məşğulluq məsələləri həll olunur və mən çox şadam ki, bizim çağırışımıza özəl sektor müsbət reaksiya verir, bu da təbiidir. Çünki özəl sektorun inkişafı, sahibkarlıqla məşğul olanların fəaliyyəti üçün dövlət çox böyük işlər görüb. İndi də özəl sektor, sahibkarlar öz sosial məsuliyyətini göstərməlidirlər və göstərirlər. Məşğulluq marafonuna 200-dən çox sahibkar qoşulub və 160 qazi artıq işlə təmin olunub. Bu da yenilikdir. Bu kateqoriyaya aid olan insanlar üçün məşğulluq marafonunun keçirilməsi əlbəttə ki, həm dövlət siyasətini, eyni zamanda, cəmiyyətimizin yetkinliyini göstərir.**

Biz müharibədə əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün ən müasir protezlər sifariş etmişik və bu protezlər artıq quraşdırılır. İkinci Qarabağ müharibəsinin 100-dək qazisi artıq ən yüksək keyfiyyətli, dünyanın aparıcı firmalarının istehsalı olan protezlərlə təmin olunub və bu protezlər onları normal həyata qaytarır. Bütün bu genişmiqyaslı işlər, təşəbbüslərlə bərabər, 8400 nəfərə, müharibədə iştirak edən insanlara sosial ödənişlər verilib.

**Prezident qeyd edib ki, şəhid ailələri ilə son illər, yəni bütün bu 18 il ərzində çoxsaylı görüşlər keçirib: "Daim çalışmışam ki, onlara həm mənəvi dəstək verim, həm də, təbii ki, onların məişət problemlərini həll edim. Eyni zamanda bilirdim ki, onlar üçün bütün bu məişət problemlərindən daha vacib məsələ onların övladlarının qisasının alınmasıdır. Mən bunu çox yaxşı başa düşürdüm və biz hamımız onların qisasını almaq istəyirdik və almalı idik. Deyirdim ki, onların qanı yerdə qalmayacaq və bu gün gəldi. Biz bütün şəhidlərimizin qanını aldıq. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qisasını döyüş meydanında aldıq və bununla fəxr edə bilərik. Öz yaxınlarını itirmiş insanlar, hesab edirəm, bununla təsəlli tapa bilərlər. Çünki onların qəhrəmanlığı, onların şücaəti və fədakarlığı torpaqlarımızın azad olunmasına xidmət etdi. Məhz onların qanı bahasına biz torpaqları almışıq, geri qaytarmışıq. Hər birimiz deyirdik, ürəyimizdə deyirdik və sözdə də deyirdik ki, nəyin bahasına olursa olsun, biz torpaqlarımızı geri almalıyıq. Əlbəttə, hər bir insanın həyatdan getməsi böyük faciədir - həm onun ailəsi üçün, yaxınları üçün, qohumları üçün, həm də cəmiyyət üçün. Ancaq bizim şəhidlərimiz haqq yolunda həlak oldular, Vətən uğrunda həlak oldular. Onların qəhrəmanlığı bu gün bütün dünyada artıq gerçək kimi qəbul olunub. Onların qəhrəmanlığı nəticəsində bu gün bizim bayrağımız azad edilmiş torpaqlarda ucaldılır. Onların qəhrəmanlığı nəticəsində xalqımız, dövlətimiz müzəffər dövlət, müzəffər xalq kimi yaşayır və bundan sonra əbədi yaşayacaq. Bu, şəhid ailələri üçün təsəlli ola bilər.**

Dövlətimizin başçısı bildirib ki, bizi qələbəyə aparan təkcə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, hərbi texnikamız yox, bizi qələbəyə aparan Vətən sevgisi idi. Ən başlıca faktor, ən başlıca amil Vətən sevgisi idi.

**İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu şanlı Qələbə Azərbaycan xalqının tarixində əbədi qalacaq.**

## Nazirlər Kabineti ictimai nəqliyyatın fəaliyyətinə dair qərar qəbul edib




**Nazirlər Kabineti "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edib.**

Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında həftəsonları, o cümlədən 2021-ci il 17 iyul tarixində ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması müəyyən edilmişdir.

Məlum olduğu kimi, Nazirlər Kabinetinin 2021-ci il 1 iyul tarixli 194 nömrəli Qərarı ilə iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2021-ci il 19 iyul iş günü ilə 17 iyul istirahət gününün yerləri dəyişdirilib və 18-21 iyul tarixləri qeyri-iş günü olaraq müəyyən edilib.

Bu baxımdan, 17 iyul tarixinin iş günü olduğunu nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən həmin tarixdə ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin bərpa olunması barədə qərar qəbul edilmişdir.

**Digər dəyişikliyə əsasən, 18 iyul saat 00:00-dan 22 iyul saat 06:00-dək ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılacaq.**

## *Səttar Möhbalıyev:* *"1969-cu ilin 14 iyul tarixi Azərbaycanın bütün sahələr üzrə inkişaf yoluna qədəm qoyduğu gündür"*

BAX SƏHİFƏ: 3

## Aylıq müavinət ödəniləcək

**Azərbaycanda müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların uşaqlarına aylıq müavinət ödəniləcək.**

Bu, Prezident İlham Əliyevin iyulun 13-də imzaladığı "Hərbi qulluqçuların statusu haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" qanunlara dəyişiklik edilməsi ilə bağlı mümkün olub.

**Dəyişikliyə əsasən, müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların hər övladına aylıq 100 manat sosial müavinət ödəniləcək.**

## Qalib müəssisə mükafatlandırıldı

BAX SƏHİFƏ: 3

## Yay məktəbi davam edir



BAX SƏHİFƏ: 3



## *Qarabağ fatehləri və onların övladları diqqət mərkəzində*

BAX SƏHİFƏ: 4

## Sıralarımızı əməli işimizlə genişləndiririk

BAX SƏHİFƏ: 8

## İqtisadiyyatın dayanıqlı və dinamik inkişafına töhfə vermək,

*həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir*



BAX SƏHİFƏ: 6

## Koronavirus infeksiyasına 146 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 73 nəfər müalicə olunaraq sağalıb, 146 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 337 min 602 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 330 min 946 nəfər müalicə olunaraq sağalıb, 4988 nəfər vəfat edib. Aktiv xəstə sayı 1668 nəfərdir.

**Ötən müddət ərzində 3 milyon 876 min 962 test aparılıb.**

**Bugünkü test sayı isə 9046-dır.**

## Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

## Həmkarlar ittifaqlarının sayında artım

BAX SƏHİFƏ: 7

## Pensiya yaş həddinə yenidən baxılması gözlənilirmi?

BAX SƏHİFƏ: 6

# Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin aralıq konfransında videoformatda çıxışı təqdim olunub

**İyulun 13-də Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin onlayn formatda aralıq konfransı keçirilib.**

**AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub.**



## Prezident İlham Əliyevin ÇIXIŞI

**-Hörmətli nazirlər.**
**Hörmətli tədbir iştirakçıları.**

**Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin aralıq konfransının bütün iştirakçılarını salamlayıram.**

Bu il biz BMT Baş Assambleyasından sonra ikinci ən böyük siyasi təsisat olan Hərəkatımızın yaradılmasının 60 illiyini qeyd edirik. Qoşulmama Hərəkatının təməlində sülh, multilateralizm və qlobal həmrəyliyin möhkəmləndirilməsi dayandığından, mürəkkəb qlobal çətinliklər Hərəkatımızın əhəmiyyətini daha da artırıb.

Bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə ölkələrin daxili işlərinə qarışmamaq və digər prinsipləri təşviq edən tarixi “Bandunq prinsipləri” Azərbaycanın xarici siyasətinin prioritetləri ilə tam uyğundur. Bu səbəbdən 10 il əvvəl Azərbaycan Qoşulmama Hərəkatı ailəsinin üzvü oldu. Qısa müddət ərzində ölkəmiz Hərəkatda olduqca böyük nüfuz və etimad qazandı. 2016-cı ildə bütün üzv dövlətlərin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatına sədrlik bizə həvalə edildi.

**2019-cu ilin oktyabr ayında Azərbaycan Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünü uğurla təşkil etdi və biz sədrliyi öz üzərimizə götürdük. Zirvə görüşündəki çıxışımda vurğulamışdım ki, Azərbaycan beynəlxalq müstəvidə Qoşulmama Hərəkatı ölkələrinin legitim maraqlarının müdafiəsi, ədalət və beynəlxalq hüququn qorunması naminə əməli addımlar atacaq.**

Azərbaycan özünün sədrliyi dövrü üçün müfəssəl və ambisiyalı fəaliyyət planı qəbul etmişdi. Təəssüf ki, COVID-19 pandemiyası dünyanı bürüdü, yeni reallıqlar və çətinliklər yaratdı. Lakin biz yeni vəziyyətə çevik və adekvat reaksiya verə bildik. Biz səylərimizi pandemiyanın yaratdığı misilsiz çətinliklərə qarşı Hərəkatın beynəlxalq səviyyədə səmərəli və birgə cavabının formalaşdırılması üzərində cəmləşdirdik.

**Bu baxımdan, Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi üçün bir sıra beynəlxalq təşəbbüslərlə çıxış edib. Biz Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdük və 2020-ci il mayın 4-də həmin tədbiri təşkil etdik. Təmas Qrupunun dünyanın müxtəlif regionlarını təmsil edən üzvləri ilə yanaşı, onlayn Zirvə görüşündə BMT-nin Baş katibi, BMT Baş Assambleyasının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı Komissiyasının sədri, Avropa İttifaqının Ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti də iştirak etdilər.**

Qoşulmama Hərəkatının onlayn Zirvə görüşünün praktiki nəticəsi olaraq, Hərəkata üzv ölkələrin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradıldı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv ölkələrin mövcud ehtiyaclarının müəyyənləşdirilməsi üçün həmin məlumat bazasını istinad mənbəyi kimi istifadə edir.

Zirvə görüşü zamanı mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsini təklif etdim. Ümumilikdə həmin təşəbbüs BMT-yə üzv olan 150-dən çox dövlət tərəfindən dəstəkləndi və 2020-ci il dekabrın 3-4-də Xüsusi Sessiya baş tutdu.

**Azərbaycan pandemiya ilə mübarizə sahəsində, Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı edib. Bununla yanaşı, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib ki, bunun da yarısı Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulub.**

Qlobal səhiyyə böhranı fonunda “peyvənd millətçiliyi” narahatlıq doğurur. Azərbaycan ehtiyaclarından qat-qat artıq peyvənd tədarük edən bəzi ölkələrin davranışını ictimai şəkildə qınayıb. Bu günədək dünyada mövcud olan peyvəndlərin 82 faizdən çoxu zəngin dövlətlər tərəfindən alınıb, azgəlirli ölkələrin payına düşən peyvənd həcmi isə yalnız 0,9 faiz təşkil edir. Belə münasibət inkişaf etməkdə olan, xüsusilə də az inkişaf etmiş ölkələrin öz əhalisini qorumaq imkanına mane olur.

**Bu məsələyə münasibətdə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib. Bununla yanaşı, biz hər fürsətdə, inkişaf etmiş ölkələri və beynəlxalq donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə də az inkişaf etmiş ölkələrə pandemiya ilə mübarizə sahəsində yardım etməyə çağırırıq.**

Çətinliklərin bir-biri ilə sıx əlaqəli olduğunu nəzərə alaraq, Azərbaycanın sədrliyi ilə səhiyyə və əmək nazirlərinin onlayn toplantıları keçirilib, kommunikasiya və təhsil nazirlikləri kimi digər sahəvi nazirliklər səviyyəsində də görüşlərin keçirilməsi nəzərdə tutulub.

Qoşulmama Hərəkatının Bakı Zirvə görüşündə aldığı mandata əsasən, Azərbaycan sədr qismində təşkilat üzrə gənclərin institusional şəbəkəsinin yaradılmasının mümkünlüyünü nəzərdən keçirir. Eyni zamanda Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin əməkdaşlığının parlamentlərarası istiqamətini də inkişaf etdirmək niyyətindədir.

**Bakı Zirvə görüşündəki çıxışımda vurğulamışdım ki, Qoşulmama Hərəkatının digər təsisatlarla dialoqunun inkişaf etdirilməsi və əməkdaşlığın coğrafiyasının genişləndirilməsi Azərbaycanın sədrliyinin prioritetləri sırasında olacaq. Məmnunluqla qeyd edirəm ki, Azərbaycan sədrliyi dövründə digər beynəlxalq təsisatlarla körpülərin yaradılmasına müvəffəq olub. Tarixdə ilk dəfə Avropa İttifaqının rəhbərləri Qoşulmama Hərəkatının yuxarıda qeyd olunan onlayn Zirvə görüşündə iştirak ediblər. Daha sonra Avropa İttifaqına üzv dövlətlər Qoşulmama Hərəkatının BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünü dəstəkləyib. Qoşulmama Hərəkatı və Avropa İttifaqı BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində bir sıra məsələlərlə bağlı əməkdaşlıq edir.**

Azərbaycan Qoşulmama Hərəkatının vahid səsini ucaldaraq, Hərəkatın maraqlarını bütün mümkün beynəlxalq platformalarda müdafiə etmişdir. Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyin artırılması, beynəlxalq arenada Hərəkatın mövqeyinin və nüfuzunun gücləndirilməsi sahəsində birgə səylər göstərməkdə davam edəcək.

**Hərəkat COVID-19-dan sonrakı dövr üçün də güclü, əlaqəli və məqsədyönlü addımlar atmalıdır. Bu mənada pandemiyadan sonra bərpa mərhələsinə dair fikir mübadiləsinin aparılması və Hərəkatın mövqeyinin müəyyən edilməsi baxımından Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli iclasının keçirilməsi faydalı ola bilər. Pandemiyadan irəli gələn çətinliklərin mürəkkəbliyini nəzərə alaraq, Qoşulmama Hərəkatı tərəfindən COVID-19-dan sonra qlobal bərpaya dair BMT-nin Yüksək Səviyyəli Panelinin yaradılması təşəbbüsü ilə çıxış edilməsi məqsədəmüvafiq olardı. Həmin panel dünyanın pandemiyadan daha yaxşı şəkildə çıxması üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər.**

2020-ci il Azərbaycan üçün əlamətdar il olub, çünki Hərəkatın gündəliyində dayanan vacib mövzulardan biri uğurla həll edilib. Bildiyiniz kimi, 30 ilə yaxın idi ki, Ermənistan ərazimizin təqribən 20 faizini işğal altında saxlayırdı. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə aparıb. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Ermənistan 1992-ci ilin fevralında Xocalı soyqırımını törədib, 106-sı qadın, 63-ü uşaq olmaqla, yüzlərlə dinc insanı qətlə yetirib. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ATƏT daxil olmaqla, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar da buna bənzər qərar və qətnamələr qəbul edib. Lakin Ermənistan aparıcı beynəlxalq təşkilatların tələblərinə məhəl qoymayıb. Beləliklə, Ermənistanın yeganə məqsədi status-kvonun saxlanılmasından və işğalın möhkəmləndirilməsindən ibarət olub.

**Son illər ərzində Ermənistan danışıqlar prosesini məqsədli şəkildə məhv edir, Azərbaycanı yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi. 2020-ci ildə Ermənistan dövlət sərhədi və keçmiş təmas xətti boyu üç dəfə hərbi təxribatlara əl atdı və nəticədə hərbçilərimiz və mülki vətəndaşlarımız həlak oldular.**

Ötən ilin sentyabrında Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi hücuma keçdi. Bu təcavüzə cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı və işğal altındakı ərazilərin böyük hissəsini azad etdi.

Qırx dörd günlük müharibə nəticəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza ataraq, Azərbaycanın işğal altındakı digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını təmin etdi.

**Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu, hərbi-siyasi yollarla özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu.**

Azərbaycanın şanlı Qələbəsi beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsidir.

Biz Qoşulmama Hərəkatı ölkələrinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə müntəzəm dəstəyini yüksək qiymətləndiririk.

**Bakı Zirvə görüşünün Yekun Sənədində Qoşulmama Hərəkatı ölkələri ərazilərin güc yolu ilə zəbt olunmasının yolverilməzliyini vurğuladılar və təsdiq etdilər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq.**

2020-ci ilin iyulunda Qoşulmama Hərəkatı Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi hərbi təxribatla bağlı kommünike qəbul edib. Bundan əlavə, Vətən müharibəsi zamanı - 2020-ci ilin oktyabrında nazirlər səviyyəsində keçirilən onlayn iclas çərçivəsində xüsusi bəyanat qəbul olunub. Bu sənədlərdə Qoşulmama Hərəkatı ölkələri Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib və ərazi bütövlüyünün bərpasına yönəlmiş səylərinə dair Azərbaycanla həmrəyliyini ifadə edib.

Bu məqamda mən Vətən müharibəsi zamanı baş vermiş konkret bir hadisəni vurğulamaq istərdim. BMT Təhlükəsizlik Şurasının bəzi üzvləri 1993-cü ildə qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının qətnamələrini nəzərə almadan, qərəzli bəyanat qəbul etdirmək cəhdləri göstərdilər. Lakin Təhlükəsizlik Şurasındakı müzakirələr zamanı Azərbaycanın mövqeyini dəstəkləyən Qoşulmama Hərəkatının yeddi üzvü təkid etdi ki, müzakirə edilən mətnə Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinə istinad əlavə edilsin.

**Qoşulmama Hərəkatı ölkələrinin belə qətiyyətli mövqeyi onların “Bandunq prinsipləri”nə və Hərəkatın dəyərlərinə sadiqliyini nümayiş etdirdi. Biz onların bu mövqeyini ikitərəfli münasibətlərimizdə tarixi dostluq jesti kimi qəbul etdik.**

İşğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb. Hətta qəbiristanlıqlar yerlə-yeksan edilib. Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub. Bizim məscidlərimiz donuz və inək tövləsi kimi istifadə edilib. Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, onu “Qafqazın Xirosiması” adlandırırlar. Füzuli şəhəri işğaldan azad olunandan sonra Ordumuz orada Azərbaycan bayrağını qaldırmaq üçün bir dənə də salamat bina tapa bilmədi. Onların hamısı Ermənistan tərəfindən dağıdılıb.

**Xarici diplomatların və jurnalistlərin azad olunmuş ərazilərə müntəzəm səfərləri təşkil edilir. Onlar Ermənistanın törətdiyi vəhşiliyin şahidi olublar. Beynəlxalq media Azərbaycan xalqına məxsus mədəni və dini irsin məqsədli şəkildə dağıdılması və təhqir olunması, şəhər və kəndlərin darmadağın edilməsi faktlarını sənədləşdirib və onları işıqlandırıb.**

Mən həmkarlarıma bizim şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab göndərəcəyəm. Kitabda Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv edilməsi öz əksini tapıb.

Biz azad olunmuş ərazilərdə yenidənqurma işlərinə artıq başlamışıq. Orada müasir şəhərsalma planlaşdırılması həyata keçirilir. Azad edilmiş ərazilər yaşıl enerji zonası olacaq. Əminəm ki, Azərbaycan transformasiyanın nadir təcrübəsini nümayiş etdirərək, Lüksemburqun ərazisindən dörd dəfə böyük olan dağıdılmış ərazini yüksək yaşayış standartlarına malik firavanlıq məkanına çevirəcək.

**Mən bu yaxınlarda ölkənin növbəti onillik üçün sosial-iqtisadi inkişafına dair beş milli prioritet müəyyən etmişəm. Digər məsələlərlə yanaşı, yüz minlərlə məcburi köçkünün doğma yurdlarına ləyaqətli və təhlükəsiz qayıdışı əsas prioritetimizdir.**

Lakin əsas çətinlik Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100 nəfərdən çox insan isə yaralanıb. Bundan əlavə, minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.

Belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Ermənistan mina xəritələrini verməkdən boyun qaçırır. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş bütün ərazilərin mina xəritələrini Azərbaycana versin.

**Sonda sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunun artırılmasına töhfə verilməsi, Hərəkat çərçivəsində həmrəyliyin gücləndirilməsi, ədalət və beynəlxalq hüququn müdafiəsi sahəsində əlindən gələni əsirgəməyəcək.**

**Sağ olun.**



# Səttar Möhbalıyev:

## “1969-cu ilin 14 iyul tarixi Azərbaycanın bütün sahələr üzrə inkişaf yoluna qədəm qoyduğu gündür”

**“Ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın müasir tarixinin bütün mərhələləri, məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin uzaqgörənliyi sayəsində Azərbaycanın milli-mənəvi irsinin qorunması da, respublikanın iqtisadiyyatının qurulması da, hərbi kadrlar yetişdirən hərbi liseyin yaradılması da məhz müstəqil Azərbaycanın bugünkü inkişafı önündə nəzərdə tutulmuş addımlar idi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan bütün sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyub, sözün əsl mənasında, öz intibah dövrünü yaşayıb”.**

***Bu sözləri Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev deyib.***

**Millət vəkili vurğulayıb ki, istər sovet dönəmində, istərsə də müstəqillik dövründə ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə davamlı olaraq həyata keçirilən və cəmiyyət həyatının ən müxtəlif sahələrini əhatə edən genişmiqyaslı islahatlar ölkəmizin potensial imkanlarını artırmışdır: “İlk növbədə birmənalı olaraq qeyd olunmalıdır ki, bütün bu illər ərzində Azərbaycanda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən və möhtəşəm nailiyyətlərin qazanılmasına səbəb olmuş uğurlu daxili və xarici siyasət Heydər Əliyev dühasının formalaşdırdığı azərbaycançılıq konsepsiyasının tərkib hissəsidir. Özü ən böyük azərbaycanlı olan Heydər Əliyev demişdir: “Hər bir kəsin milli mənsubiyyəti onun üçün qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.” Ulu Öndər azərbaycanlı olması ilə daim fəxarət duyurdu. Bu, Azərbaycan vətənpərvərliyinin ali zirvəsidir. Ən ali vətənpərvərlik hissi öz xalqına mənsubluqdan qürur hissi keçirməkdir. Azərbaycançılıq dünyagörüşü Ulu Öndərin siyasi fəaliyyətinin bütün sahələrində geniş kontekstdə öz ifadəsini tapmışdır. Hələ 1969-1982-ci illər ərzində Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyev tərəfindən siyasi-ideoloji müstəvidə görülən işlər milli inkişaf və həmrəyliyimizin təminatçısı qismində çıxış etmişdir. Milli-ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Ulu Öndərin təşəbbüsü və gərgin səyləri sayəsində Azərbaycan SSR-in Konstitusiyasına “Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir” maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi əhəmiyyətə malik addım oldu. Bunun ardınca milli-mənəvi dəyərlərin qorunması istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Musiqi, teatr, kino, təsviri incəsənət və digər sahələrdə xüsusi dəyişikliklər və inkişaf meyilləri qeydə alındı. Bütün ölkə üzrə kütləvi şəkildə mədəniyyət evləri inşa edildi, abidələr ucaldıldı, incəsənət xadimlərinə fəxri adlar, ordenlər, təqaüdlər ayrıldı.**

Bütün bunlar isə cəmiyyətin intellektual təbəqəsinin fəaliyyətinin səmərəlilik səviyyəsini daha da artırdı. Bütövlükdə 1969-cu ildən başlayan böyük inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsası oldu”.

Daha sonra Səttar Möhbalıyev qeyd edib ki, 1969-1982-ci illər müstəqil dövlətçiliyimiz üçün zəruri şərtlərdən biri olan milli kadr hazırlığının əsaslı şəkildə təmin edilməsi baxımından da müstəsna əhəmiyyət kəsb edib: “Heydər Əliyevin SSRİ tərkibində olan Azərbaycanda hakimiyyətə gəlişi ilə respublikamızda iqtisadi inkişafa doğru ciddi dönüş əldə edildi, elmi və ədəbi-mədəni intibahın əsası qoyuldu. Məhz həmin dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyin təmin olunması üçün əsaslı zəmin hazırladı. Beləliklə, hələ sovet dönəmində Azərbaycanda milli müstəqilliyə etibarlı zəmin formalaşdıran Ulu Öndər əlverişli sosial-iqtisadi, hüquqi və mənəvi-intellektual mühit yaradaraq, bu möhkəm bünövrə üzərində xalqın illər sonra azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etdi. Xüsusi olaraq vurğulamaq lazımdır ki, məhz 1969-1982-ci illər respublikada ictimai-siyasi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklərin miqyasına görə Azərbaycanın şanlı inkişaf və quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Xüsusilə qeyd olunmalıdır ki, ulu öndər 1969-1982-ci illər ərzində müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirib. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli Liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər. Buradan da göründüyü kimi, XX əsrin 70-80-ci illərində Ulu Öndərimizin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaradıb.

**1969-cu ilin 14 iyulu tarixə Azərbaycanın özünə qayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi düşüb. Çünki məhz həmin tarixdən etibarən Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi Azərbaycanı nəinki keçmiş SSRİ-də və dünyada tanıdıb, həm də milli varlığımızı qoruyub saxlayıb. Ümummilli lider Heydər Əliyev 34 ildən artıq bir dövrü əhatə edən zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız Ümummilli Liderin adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin ötən əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin uzaqgörən və zəngin siyasi fəaliyyəti sayəsində mümkün olmuşdur”.**

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında

# Yay məktəbi davam edir



**Muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdlərinin asudə vaxtının səmərəli təşkili, innovativ təhsil metodu olan STEAM üzrə bilik və bacarıqlar əldə etmələri məqsədilə Şahbuz rayonunda yerləşən Ağbulaq İstirahət Mərkəzində “STEAM yay məktəbi” təşkil olunub.**

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Gənclər Fondu və Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilən “Yay məktəbi”nin açılışında çıxış edən təhsil naziri Rəhman Məmmədov STEAM təhsil metodunun ümumtəhsil müəssisələrində tətbiqinin əhəmiyyətindən danışıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən şagirdlərin bilik və bacarıqlarının möhkəmləndirilməsi, istedadlarının aşkar edilməsi istiqamətində bir sıra innovativ layihələr tətbiq olunur. Bu layihələrdən biri də 2020-2021-ci tədris ilindən muxtar respublikada tətbiqinə başlanılan STEAM-dır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı Tədbirlər haqqında” 2021-ci il 7 iyun tarixli sərəncamı bu sahədə görülən işləri sürətləndirib. Sərəncama uyğun olaraq Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılacaq, ümumtəhsil məktəblərində STEAM kabinetlərinin yaradılması davam etdiriləcək və hər il şagirdlərin müxtəlif STEAM layihələri əsasında “STEAM təhsil festivalı” keçiriləcək.

**Təhsil naziri bildirib ki, Sərəncamın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 11 iyun tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı Tədbirlər Planı” təsdiq edilib. Hazırda tədbirlərin icrası istiqamətində işlər davam etdirilir. Bu günə qədər 15 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb. Sentyabrın 15-dək əlavə 38 məktəbdə də kabinələr yaradılacaq. Beləliklə, 2021-2022-ci tədris ilindən etibarən 7 mindən çox şagird STEAM təhsilinə cəlb olunacaq.**

“Şagirdlərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə iyulun 6-9-da və 13-16-da muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün “STEAM yay məktəbi”nə start verilir”, - deyən Rəhman Məmmədov qeyd edib ki, proqram üzrə şagirdlər STEAM düşüncəsi və metodikası, XXI əsr bacarıqları, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları kimi istiqamətlərdə məlumatlarla tanış olacaqlar. Proqram əsasında şagirdlərə micro:bit vasitəsilə kodlama, müxtəlif mühəndis-dizayn həllərinin prototiplәşdirilməsi və digər bu kimi istiqamətlərdə praktik biliklər veriləcək və təlimi uğurla başa vuran şagirdlər Təhsil Nazirliyi tərəfindən STEAM “Yay məktəbi”ndə iştirak etdiklərinə görə sertifikatla təmin ediləcəklər.

**Təhsil naziri “STEAM yay məktəbi”nin iştirakçılarına uğurlar arzulayıb, müəllimlərə təlimlərin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıqlar verib, təhsildə innovasiyaların tətbiqi üçün yaratdığı şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə minnətdarlığını bildirib.**

Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək vurğulayıb ki, son illər muxtar respublikanın ictimai-siyasi, elmi-mədəni həyatında yeniyetmə və gənclərin fəal iştirakı, yeniyetmə və gənclər üçün müxtəlif layihələr, tədbirlərin, yay məktəblərinin, düşərgələrin təşkili gələcəyimizə qayğının ifadəsidir. İnanırıq ki, bu gün təşkil olunan “STEAM yay məktəbi” də yaxın gələcəkdə doğma Naxçıvanımızda elm sahəsində daha böyük nailiyyətlər əldə edilməsinə səbəb olacaq.

**Sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov çıxış edərək bildirib ki, respublika rəhbərinin ictimai təşəbbüslərinə qoşularaq onların həyata keçirilməsində iştirak etmək qarşımızda duran ümdə vəzifələrdən biridir. Bu mənada “STEAM yay məktəbi”ndə - insan kapitalına yatırım kimi əhəmiyyətli layihədə iştirak bundan sonra da davam etdiriləcəkdir.**

**O, yay məktəbinin işinə uğurlar arzulayıb, şagirdləri təbrik edib.**

Çıxışlardan sonra tədbir iştirakçıları “STEAM yay məktəbi”nin proqramı və orada iştirak edən şagirdlərə yaradılan şəraitlə tanış olublar.

“STEAM yay məktəbi”nin təşkili ilə bağlı Təhsil Nazirliyi tərəfindən şagirdlərin istifadəsi üçün 10 ədəd 3D printer və çap materialı, 15 ədəd mikrobit dəsti, 15 ədəd 3D qələm, 10 ədəd servo mühərrik, 4 ədəd LEGO, 1 ədəd rokokey inkişaf kartı, 1 ədəd EVO STEM dəsti və STEAM layihələrinin hazırlanmasına lazım olan digər ləvazimatlar ayrılıb.

**Dördgünlük təşkil olunmuş “STEAM yay məktəbi”ndə 60 şagird iştirak edir. Avqust ayında tələbələr üçün də “STEAM yay məktəbi” təşkil olunacaq.**

# Qalib müəssisə mükafatlandırıldı

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən təşkil olunan “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)” adı uğrunda keçirilən müsabiqədə qalib gəlmiş “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Təhlükəsizlik İdarəsinin əməkdaşları mükafatlandırılıblar.**



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Eyvaz Əsgərov müsabiqənin və qazanılan uğurun əhəmiyyəti barədə ətraflı məlumat verib.

“Naxçıvan Dəmir Yolları” MMC-nin direktoru Mahir Əliyev çıxışında dəmir yollarının təhlükəsizliyi sahəsində görülən işlərdən danışıb, yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıq edib. Bildirib ki, bu gün muxtar respublikada bütün müəssisə, təşkilat, xidmət və istehsal sahəsində əməkçi insanlar üçün münbit iş şəraiti yaradılıb. “Naxçıvan Dəmir Yolları” MMC Təhlükəsizlik İdarəsi üzrə də sağlam həyat, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi istiqamətində bir çox səmərəli tədbirlər reallaşdırılır.

**Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov bildirib ki, əməyin mühafizəsi və təhlükəsizliyi şuranın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Tədbirlər planına uyğun olaraq Şura əməkdaşları mütəmadi ilk təşkilatlara, xüsusilə əməyin mühafizəsinə ciddi ehtiyac duyulan müəssisələrə gedir, əməli kömək göstərir, maarifləndirici tədbirlər keçirilər.**

A.İbrahimov qeyd edib ki, “Naxçıvan Dəmir Yolları” MMC-nin Təhlükəsizlik İdarəsi 2020-ci il üçün nəzərdə tutulan müsabiqədə fəal iştirak edib, təşkilatın fəaliyyətini əks etdirən sənədlər Şura tərəfindən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına göndərilib. Konfederasiyanın qərarına əsasən, həmin idarə müsabiqənin qalibi elan edilib.

**Təhlükəsizlik İdarəsinin kollektivini təbrik edən Anar müəllim sağlam və təhlükəsiz əmək şəraitinin formalaşması üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təşəkkürünü bildirib.**

Sonra qalib müəssisə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Fəxri diplomu və qiymətli hədiyyə, bir qrup əməkdaşa isə Şuranın Fəxri Fərmanı və pul mükafatı verilib.

**İdarənin rəisi Səxavət Kazımov verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq edib, dəmir yolları sahəsində sağlam və təhlükəsiz əmək şəraitinin formalaşması üçün bundan sonra da səylə çalışacaqlarını diqqətə çatdırıb.**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

# Vitse-prezidentə mükafat təqdim olundu



**"Həmkarlar ittifaqı işçisi onda nüfuz sahibi olur ki, sözü ilə əməli bir-birini tamamlasın. Fəaliyyətində ədalət prinsipini əsas götürsün. Daim öz üzərində işləsin, peşəkarlığını artırmaq qayğısına qalsın".**

Bu sözləri "Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyasının prezidenti İlyas Əliyev Federasiyanın vitse-prezidenti Xəyyam Nəsibova "Azərbaycan Həmkarlar İttifaqları - 115 il" Yubiley döş nişanını təqdim edərkən dedi. Bildirdi ki, bütün bu keyfiyyətlər X.Nəsibovda var. O, Federasiyada çalışdığı müddətdə yüksək təşkilatçılıq bacarığı və təşəbbüskarlığı ilə özünü əsl həmkarlar ittifaqı lideri kimi təsdiq edə bilib.

**Xəyyam müəllim mükafata görə "Xidmət-İş"in və AHİK-in rəhbərliyinə təşəkkür etdi: "Bu yubiley döş nişanı bir daha xatırladır ki, biz 115 il çətin, şərəfli yol keçib günümüzə gəlib çatmış əzmkar bir təşkilatın varisləriyik. Biz sələflərimizin qoyduğu ənənələrə sadiq qalaraq təşkilatımızı dövrün tələbləri səviyyəsində qurmalı və gələcək nəslə ötürməliyik.**

Mən buna əminəm. Çünki bu təşkilatın sükanı arxasında çox ləyaqətli, zəngin təcrübəyə malik, insanlara qarşı həssas, vətənpərvər bir lider - millət vəkili, professor Səttar Möhbalıyev durur. Biz hamımız onun məktəbini keçmişik. Ondan öyrənmişik. Onun etimadını da doğrultmaq hər birimizin borcu və vəzifəsidir".

**Tədbirdə "Xidmət-İş" Hİ Federasiyasının aparat işçiləri iştirak edirdilər.**

# Fikir mübadiləsi aparıldı, tələblər irəli sürüldü



**Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin onlayn formatda keçirilən növbədənkənar iclasında qitədə təhsil sektorunun gələcəyi müzakirə olunub.**

11 milyondan çox təhsil işçisini təmsil edən təhsil işçiləri həmkarlar ittifaqı iqlim dəyişikliyi, bərabərlik və inklüzivlik, süni intellekt və rəqəmsallaşdırma mövzularında fikir mübadiləsi aparıb, bir sıra tələblər irəli sürüblər.

Həmçinin Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luka Visentininin, Beynəlxalq Təhsil Birliyinin Baş katibi David Edvardsın, Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin prezidenti Larri Flanaqanın, Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin direktoru Susan Flokenin, Avropa Komissiyasının Təhsil, Gənclər, İdman və Mədəniyyət Məsələləri üzrə Baş direktoru Temis Kristofidounun və digərlərinin çıxışları dinlənilib.

**Konfransda Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin birinci müavini Hümbət Nağıyev və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Səbuhi İmanov da iştirak ediblər.**

# Küçə alveri: yaxşı təcrübə və həlli yubadılan problemlər



**"Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyası "StreetNet İnternational" (SNİ) Beynəlxalq təşkilatının "Post-COVID-19 İqtisadi Xilas Planlarının İnkişafına dair" layihəsinə qoşulub.**

Layihənin hazırlanmasında və həyata keçirilməsində məqsəd iqtisadiyyatda, eləcə də küçə və bazar alverində iştirak edən insanların sağlamlığının qorunması və gəlirlərinin bərpasına yardımçı olmaqdır. Federasiyanın vitse-prezidenti Cəmaləddin İsmayılov müxbirimizə bildirdi ki, digər ölkələrdə olduğu kimi, Azərbaycanda da xüsusilə yay aylarında bazarlarda, küçələrdə, avtomobil, qatar nəqliyyatı yolları kənarlarında alver mövsümü pik həddə çatır. Bu alverdə iştirak edənlərin böyük əksəriyyəti qadınlardır. Onların çalışdıqları şərait pandemiyadan mühafizə olunmalarına tam təminat verirmi? Bu yaxınlarda Şəmkirdə, Gədəbəydə, Qəbələdə keçirdiyimiz seminarlarda, təəssüf ki, bu sualımıza qənaətverici cavab ala bilmədik. Bəs nə etməliyik? Küçə alveri ilə məşğul olan vətəndaşlarımızı, iqtisadi fəaliyyətlərinə xələl gətirmədən, COVID-19-a yoluxmaqdan necə uzaq tutmalı?

Seminarlarda söhbət məhz bu narahatlıq doğuran məsələlər ətrafında getdi. Çıxışlarda deyildi ki, şəhərlərimizdə küçə alveri ilə bağlı problem, demək olar ki, yoxdur. Uzun illərdir küçə alveri bazarlara köçürülüb. Bazarlarda isə şərait günün tələbləri səviyyəsindədir. Səliqəli piştaxtalar, kafelər, malların saxlanılması üçün münasib otaqlar alverçilərin ixtiyarına verilib. Sanitar-gigiyenik şərait gündəlik nəzarətdədir.

**Təəssüf ki, kənd və qəsəbələrimiz, rayonlararası magistral yolların ətrafındakı alver yerləri barədə belə məmnuniyyətlə danışmaq olmur. Halbuki sadaladığımız bu ərazilərdə də səliqə-sahman yaratmaq olar. Bələdiyyələrin vəsaiti hesabına yolların kənarında, yaşayış məntəqələrinə yaxın ərazilərdə minibazarlar yaratmaq bir o qədər də çətin deyil. Bu, yeri gəlmişkən, turistləri cəlb etmək baxımından da sərfəlidir. Seminarda sahə Hİ həmkarlar ittifaqının rayon komitələrinin sədrləri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının regional nümayəndələri və küçə-bazar alveri ilə məşğul olan insanlar iştirak edirdilər.**

# Növbəti vebinar-iclası



**İyul ayının 9-da Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyətinin növbəti vebinar-iclası keçirilmişdir. Vebinar-iclasda Respublika Komitəsinin şəhər, rayon komitələri və ilk həmkarlar ittifaqı təşkilatlarında sosial dialoqun inkişaf etdirilməsi ,teatr-tamaşa müəssisələrində əməyin mühafizəsinin vəziyyəti haqqında müzakirələr aparılmış və qərarlar qəbul edilmişdir.**

# Qarabağ fatehləri və onların övladları diqqət mərkəzində



**"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi nəticəsində uzun illərdən bəri düşmən əsarətində qalmış Qarabağımız doğmalarına qaytarıldı. Əziz Şuşa, biz gəldik! Cənnət Qarabağ, biz gəldik!"**

Qarabağa, onun tacı Şuşaya gələn gənclərimiz arasında Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının üzvləri də az deyildi.

**Bu gənclər Respublika Prezidenti tərəfindən layiqincə qiymətləndirilib, onlara dövlətimizin ali mükafatları verilib. Sahə Hİ Respublika Komitəsi həmin gəncləri, özünü torpağımızın azadlığı uğrunda fəda etmiş oğullarımızın ailələrini, övladlarını qayğısından kənarda qoymur. Şəhidlərimizi göz yaşları, qürurla xatırlayır, xatirələrini uca tutur. Ötən ay Respublika Komitəsi Azərbaycan Dövlət Filarmoniyasının Vətən müharibəsində şəhid olmuş işçilərinin övladlarının Nabranda yerləşən turist mərkəzlərində istirahətini təşkil etdi. Onları dilbər Şimal bölgəmizin səfalı, tarixi yerlərinə gəzintilərə apardı.**

***

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Hüquq şöbəsinin müdir müavini, Vətən müharibəsində silaha sarılmış, mülki geyimini zabit geyimi ilə əvəzləmiş Ruslan Fəzail oğlu Bağırov Respublika Komitəsinə dəvət olundu. Respublika Komitəsinin sədri Cəmilə xanım Səttarova Ruslana dedi ki, biz səninlə fəxr edirik. Sən könüllü olaraq cəbhəyə yollandın. Qızğın döyüşlərdə iştirak etdin. Hünər göstərdin. Qarabağın işğal altında olan rayonlarının azadlığı naminə sona qədər vuruşdun. Cənab İlham Əliyevin imzası ilə aldığın 3 medal sənin qəhrəmanlığından xəbər verir.**

Cəmilə xanım R.Bağırova Respublika Komitəsinin Fəxri Fərmanını təqdim etdi.

**Ruslan diqqətə görə AHİK və RK rəhbərliklərinə təşəkkürünü bildirdi.**

# Fəallar fərqləndirildilər



**Azərbaycan Dövlət Aqrar Universitetin Elmi Şurasında universitetin Həmkarlar İttifaqı Komitəsinin və ilk həmkarlar ittifaqı komitələrinin sədrləri, universitetin tələbə həmkarlar ittifaqı komitəsinin işçiləri və fakültə tələbə həmkarlar ittifaqı komitəsinin sədrləri, ümumilikdə 13 nəfər Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin yaranmasının 100 illiyi ilə əlaqədar TİAHİ RK-nın təsis etdiyi Yubiley döş nişanı ilə təltif edilmişdir.**

Təltif olunanlar göstərilən diqqət və qayğıya görə, TİAHİ Respublika Komitəsinin sədri, millət vəkili Səttar Möhbalıyevə və universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərova minnətdarlıqlarını bildirdilər.

# Biz daim onların yanındayıq



**Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə həlak olmuş şəhidlərimizin ailə üzvlərinə və qazilərimizə daim dəstək göstərir. Federasiya 2 şəhid ailəsinin üzvlərini öz himayəsinə götürmüşdür.**

Federasiyanın məsul işçisi, Aparat rəhbəri Rüfət Bürcəliyev və həmkarlar ittifaqı fəalı - Az-Granata ASC-nin Həmkarlar İttifaqı Komitəsinin sədri Cabbar Məmmədov Ağsu rayonuna və Mingəçevir şəhərində yaşayan şəhid ailələrini ziyarət etmiş, onların qayğıları, güzəranları və övladlarının təhsili ilə maraqlanmışlar. Şəhid ailələrinə qarşıdan gələn Qurban bayramı münasibətilə Federasiya adından ərzaq sovqatı çatdırılmışdır. Göstərilən diqqət və qayğıya görə hər 2 ailənin üzvləri təşəkkürlərini bildirmişlər.

**Bu xeyirxah iş yerlərdə ilk həmkarlar ittifaqı komitələri tərəfindən davam etdirilir.**

# Həkim döyüşçülər layiqli qiymətlərini aldılar



Rasim Əzizov



İntiqam İbrahimov

**44 günlük Vətən müharibəsində səhiyyə işçiləri fədakar əməyi ilə əsl qəhrəmanlıq göstərmişlər. Onlar həm ön, həm də arxa cəbhədə üzərlərinə düşən vətəndaşlıq və peşə vəzifələrini şərəflə, ləyaqətlə yerinə yetirmişlər.**

Bir çox səhiyyə işçisi, o cümlədən Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Kürdəmir Rayon Şurasının sədri Rasim Maşalla oğlu Əzizov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur Döyüşçü" medalları ilə, Ağdaş Rayon Şurasının sədri İntiqam Əhmədiyə oğlu İbrahimov "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

**Həmkarlarımızı aldıqları medallar münasibətilə təbrik edir, hər birinə cansağlığı və yeni-yeni uğurlar arzulayırıq.**

**Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi**



# "Hüququndan keçən əsgər, Hərə bir qəhrəman oldu!"

## Vətən müharibəsində tarix yazan tarix müəllimi



**Leytenant Xalid Nəciyev 1992-ci il iyulun 3-də Saatlıda 4 uşaqlı ailənin sonbeşiyi olaraq dünyaya göz açıb. Gəncə Dövlət Universitetinin Tarix-coğrafiya fakültəsini bitirib. Hərbi xidmətini Naxçıvanda keçib. Leytenant kimi xidmət edib.**

Tərxis olunduqdan sonra doğma rayona qayıdıb. Məktəbdə tarix və coğrafiyadan dərs deyib.

Hələ uşaqlıqdan vətənpərvərliyi ilə seçilən Xalid dərs dediyi uşaqlara da Vətən sevgisini aşılayıb. O həmçinin Təhsil Nazirliyinin Saatlı və Sabirabad rayonlarında ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi vəzifəsində çalışıb.

**2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayır və ehtiyatda olan leytenant Xalid Nəciyev də öz arzusuna çatır. Sentyabrın 29-u valideynlərindən xəbərsiz könüllü olaraq cəbhəyə yollanır.**

Anasını arxayın salmaq üçün deyib ki, "narahat olma, kadrlar şöbəsində köməkçi işləyirəm. Axıra qədər burda olacağam". Qardaşına isə həqiqəti olduğu kimi deyib: döyüşürük, inşallah, qələbə ilə qayıdacağam.

**Elə həmin vaxtlarda Xalid Qubadlı, Laçın istiqamətində gedən savaşda komandanlıq etdiyi qrupla düşmənə sarsıdıcı zərbələr vururdu. Ermənilərin bir çox canlı qüvvəsini məhv edir, vacib strateji yüksəklikləri ələ keçirirdi. Sonuncu döyüşü noyabrın 5-də Laçının Səfiyan kəndi istiqamətində olur. Belə ki, yaralı və şəhid silahdaşlarını şiddətli döyüş zamanı atəş altından çıxarmaq istəyərkən qəhrəmancasına şəhid olur.**

Atası Qabil Nəciyev: "Bir komandirin yaralı əsgərini, şəhidini bu qədər düşünməsi, sadəcə, onun komandirliyindən deyil, eyni zamanda insani keyfiyyətindən də xəbər verir. Düzdür, valideyn üçün bu, çox ağırdır. Lakin o, Vətənin azadlığı yolunda şəhid olub. Oğlum mənim qürurumdur. Bir oğlum da var, lazım olsa, o da gedəcək".

Şəhidin nəşi 21 gün döyüş bölgəsində qalır. 21 gündən sonra - noyabrın 27-də Saatlı rayonunda dəfn olunur.

**Prezident İlham Əliyevin Sərəncamına əsasən, Xalid Qabil oğlu Nəciyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.**

## Elçin 27 ildən sonra azad olunmuş mövqeyə ilk bayraq sancanlardan olur

**"Kəşfiyyat ordunun görən gözüdür. Məqsədimiz hərbi qulluqçulardan peşəkar kəşfiyyatçı yetişdirməkdir. Mən fəxr edirəm ki, kəşfiyyatçıyam". Bu sözləri 20 nəfərdən çox düşmən heyətini təkbaşına məhv edən "tənha canavar" ləqəbli kəşfiyyatçı, Vətən müharibəsi qəhrəmanı mayor Elçin Mansurov deyib.**

Əslən Yardımlı rayonundan olan Elçin 1984-cü ildə Bakının Binə qəsəbəsində dünyaya göz açıb. 2003-cü ildə yüksək balla Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2007-ci ildə hərbi məktəbi nümunəvi kursant olaraq bitirib və təkmilləşdirmə kursu keçib. Kursu başa vurduqdan sonra Tovuzda "N" saylı hərbi hissədə leytenant hərbi rütbəsi ilə hərbi vəzifəsinə başlayıb. 2009-cu ildə isə Goranboyda yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı-zabit kimi fəaliyyət göstərib. 13 illik hərbi xidməti müddətində Tovuz, Murovdağ və Füzulidə yerləşən "N" saylı hərbi hissələrdə kəşfiyyatçı vəzifəsində xidmət edib. Hətta qüsursuz xidmətinə görə korpus komandiri general-mayor Mayis Bərxudarov tərəfindən Fəxri Fərman və təşəkkürnamələrlə təltif edilib, bir neçə medala layiq görülüb.

E.Masurov Aprel döyüşləri zamanı da böyük şücaət göstərib.

**2020-ci ildə mayor rütbəsinə yüksələn Elçin təcrübəli kəşfiyyatçı kimi ən çətin tapşırıqlara göndərilirdi. Bir qədər əvvəl dediyim kimi, O, "tənha canavar" ləqəbi ilə tanınırdı. Buna səbəb,**



**onun təkbaşına kəşfiyyata getməsi və tutub gətirdiyi erməni əsgərlərindən mühüm məlumatları öyrənməsi idi. Elçinlə şəhid Fərid Əhmədov kursant yoldaşı və yaxın dost olublar. Hər dəfə əməliyyata gedəndə "şəhid dostum Fəridin intiqamını almaq üçün ova gedirəm" deyərmiş. Hətta ermənilər onun başını gətirənə pul mükafatı vəd etsələr də, təcrübəli zabit hər zaman onların gözündən yayına bilirmiş.**

Anası Məleykə Məcidova deyir ki, Elçin körpəlikdən belə idi. Heç nədən qorxmurdu: "İstəmirdi başqa uşaqlara nəsə olsun, ona görə tək gedib, tək vuruşurdu. "Tənha canavar" ləqəbini də elə buna görə almışdı".

**Sentyabrın 27-si Vətən müharibəsi başlayanda Füzuli istiqamətində qızğın döyüşlərin getdiyi gün Elçinin komandanlıq etdiyi qrup hücuma keçir. O, 24 nəfərlik qrupla heç bir itki vermədən düşmən postunu ələ keçirir. İkinci hücum zamanı isə cəmi 45 dəqiqə ərzində iki erməni taqımını darmadağın edir, strateji əhəmiyyətli iki postu ələ keçirirlər. O, bu zaman yaralansa da, yenə döyüşə davam edir. Özü yaralı olduğu halda 12 yaralı əsgəri döyüş meydanından çıxarır.**

Elçin 27 ildən sonra azad olunmuş mövqeyə ilk bayraq sancanlardan olur. Həmin gün tabeliyində olan qrupdan ayrılaraq düşmən bölmələrinin olduğu yerlərə həmlə edərək 20-dən çox düşmən əsgərini məhv edir. Amma geri qayıdan zaman Buğra dərəsi deyilən yerdə düşmənin açdığı snayper atəşi ilə Şəhidlik zirvəsinə ucalır.

Onun cənazəsi döyüş meydanından oktyabrın 11-i götürülür. 36 yaşlı şəhidimiz Bakıda II Fəxri xiyabanda dəfn olunur.

**Elçin Elşən oğlu Mansurov "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, ölümündən sonra isə "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.**

## Ata vəsiyyətini layiqincə yerinə yetirən qəhrəman



**37 illik ömrünün 15 ilini səngərlərdə keçirən "canavar" ləqəbli polkovnik-leytenant Rəşad Quliyev 1983-cü il sentyabrın 23-də Xətai rayonunda anadan olub. Ailədə iki bacı, bir qardaş olublar.**

Rəşadın 6 yaşı olanda atası Rəşid bəy dünyasını dəyişir. Vəsiyyəti isə "Rəşad böyüyəndə hərbçi olsun" olur. Atasının vəsiyyətini yerinə yetirən Rəşad sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verir. Yüksək bal topladığına görə təhsilinə birbaşa II kursdan başlayır. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2005-ci ildən leytenant rütbəsində cəbhə bölgəsində xidmət edir.

R.Quliyev Aprel döyüşlərinin də iştirakçısı olub və Lələtəpə yüksəkliyinin alınmasında yaxından iştirak edib. Xidmətdə fərqləndiyinə görə dəfələrlə mükafatlandırılıb. Yaxınları deyir ki, hər dəfə kəşfiyyata getdiyi düşmən postlarına işarə qoyub qayıdırmış ki, onlar məhz Rəşadın gəldiyindən xəbərdar olsunlar. Ona yoldaşları "canavar" ləqəbini vermişdilər. Bu da boşuna deyildi. Çünki Rəşad erməni polkovnik-leytenantı öz "UAZ" markalı maşınında məhv etmişdi.

**Komandir kimi əsgərlərinə daim diqqət göstərən R.Quliyev 2020-ci il avqustun 3-də təqaüdə çıxmalı olsa da, ancaq öz istəyi ilə xidmətini davam etdirir. Anası Mətanət Quliyeva oğlunun təqaüdə çıxdığı günü səbirsizliklə gözləyirmiş: "Sevinirdim ki, daha övladımın üzünü doyunca görəcəyəm. Nə bayramlarda, nə də ad günlərimizdə yanımızda olmurdu".**

Vətən müharibəsi başlayan gündən Rəşad döyüşlərin iştirakçısı olub. Sonuncu dəfə oktyabrın 5-də ailəsi ilə danışaraq tezliklə şad xəbərlərlə onları sevindirəcəyini bildirib. Ardınca isə dostlarına zəng edərək deyib: "Tezliklə ya şəhid, ya da qəhrəman kimi qayıdacağam".

Rəşadın sonuncu döyüşü Cəbrayıl istiqamətində olur. Düşmən onun komandanlıq etdiyi dəstəni minaatanlardan atəşə tutur. İrəli gedərkən əsgəri ona deyir: "Komandir, göz görə-görə ölümə gedirik". Rəşadın son sözləri isə "mənimlə ölümə getməyə razısan?" olur. O, arxadakı əsgərlərə "dağılın!" əmri verir. Bu zaman onların yanına mərmi düşür. Yanındakı əsgər ağır yaralanır. Rəşad Quliyev isə qəhrəmancasına şəhid olur.

**Anası M.Quliyeva: "Qapı döyüldü. Gördüm bir oğlan qapıda dayanıb. Məndən gəlinimin nömrəsini istədi, dedim, "mən anasıyam". Dedi "siz Quliyev Rəşadın anasısınız?" Dedim "bəli". Oğlan heç nə deməyib aşağı düşdü. Ayağıma heç nə geyinməmiş mən də onun arxası ilə aşağı düşdüm. Həyətdə binanın komendantı olan qadını gördüm. Ondan həmin oğlanı görüb-görmədiyini soruşdum. Ağlaya-ağlaya üzünü çevirdi. Onda başa düşdüm ki, mənim oğluma nə isə olub".**

Rəşad Quliyev II Fəxri xiyabanda dəfn olunub.

Rəşad Rəşid oğlu Quliyev "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı, ölümündən sonra isə Prezidentin müvafiq Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

İnci və Dərya adında iki qızı olan Rəşad sanki olacaqlardan xəbərdar kimi həyat yoldaşı Aytən xanıma vəsiyyət də edir: "Ola bilər ki, tikəm ələ gəlməsin, heç zaman üsyan etmə. Başını dik tut ki, qızlar da Vətənə layiqli övlad kimi böyüsünlər" .

**Onu da qeyd edək ki, Zığ qəsəbəsində-yaşadığı binanın həyətində dostları tərəfindən şəhidin adına bulaq tikilib.**

## Təkcə idman meydanından deyil, döyüş meydanından da qalib çıxan çempion

**Təkcə idman meydanından deyil, döyüş meydanından da qalib çıxmağı bacaran qaydasız döyüş üzrə çempion şəhid Bəhruz Əhmədov 1997-ci ilin iyununda Sabirabad rayonunun Balakənd kəndində anadan olub. Orta təhsilinə Sabirabadda başlasa da, bir müddət sonra atasının işi ilə əlaqədar Bakıya köçüblər.**

Bəhruzun uşaqlıqdan idmana böyük marağı olur. Fitri cəldliyi, döyüş texnikası, rəqiblərin atacağı addımı əvvəlcədən duyma qabiliyyəti onun peşəkar idmançı kimi yetişməsində rol oynayır. Bakıda böyük arenalarda özünü sınayır və həmişə qələbə qazanırdı. Hətta özü də idmançılar yetişdirirdi.

**O, həqiqi hərbi xidmətini Tovuzda keçirib. Düşmənlə üz-üzə səngərdə keçirdiyi günlər onun vətənpərvərliyini bir qədər də artırır. "Torpaqların azad edilməsi üçün Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyirəm", - deyən Bəhruzun, nəhayət, gözlədiyi vaxt gəlib çatır. Sentyabrın 27-də Vətən müharibəsi başlayır. Bəhruz bir gün sonra-sentyabrın 28-i Bakıdan Sabirabada gedir və könüllü olaraq cəbhəyə yola düşür. Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı uğrunda döyüşlərdə iştirak edir. Döyüşlərdə böyük şücaət göstərən Bəhruz hətta bir neçə yaralı yoldaşını da döyüş meydanından sağ-salamat çıxara bilir. Son fədakarlığı isə oktyabrın 21-də Qubadlı uğrunda gedən döyüşlərdə olur. Belə ki, o, yaralı döyüş yoldaşının silahını götürərək önə atılır. Son damla qanına qədər döyüşərək təkbaşına xeyli irəliləyir və düşmənin çox sayda qüvvəsini məhv edir. Amma bu zaman özü də snayper gülləsinə tuş gələrək Şəhidlik zirvəsinə ucalır.**



Şəhid Bəhruz Əhmədov Sabirabad rayonunda dəfn edilib.

Qeyd edək ki, B.Əhmədovun atası Səttar Əhmədov da I Qarabağ müharibəsi iştirakçısı olub. O, Ağdərə uğrunda gedən döyüşlərdə vuruşub.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Bəhruz Səttar oğlu Əhmədov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.**

## "Əlimi bərk-bərk sıxmışdı..."



**Əliağa Eldəniz oğlu Məmmədov 2001-ci il iyulun 26-da Sabunçu rayonunda anadan olub. Orta təhsilini əvvəlcə Sabunçu rayonu 80 nömrəli tam orta məktəbdə alsa da, daha sonra Sabunçu rayonu 322 nömrəli tam orta məktəbdə davam etdirib. 2017-2018-ci illərdə 5 nömrəli Peşə Liseyində "İşıq operatoru" ixtisası üzrə təhsil alıb. 6 il cüdo idman növü ilə məşğul olub.**

Ə.Məmmədov 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb.

Azərbaycan Ordusunun əsgəri olan Əliağa Məmmədov sentyabrın 27-də başlayan Vətən müharibəsinin iştirakçısı olub. Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə savaşıb. O özünü ölümə ataraq komandiri Cəmşid Ağayevin həyatını xilas edib. Komandir deyir ki, hücuma keçən zaman evin tək oğullarını arxa cəbhədə-yaralılara xidmət üçün saxlayıb. Əliağa isə evin tək övladı olmasına baxmayaraq, özbaşına döyüşə girib: "Oktyabrın 6-da hazırlaşırdıq, hücuma keçməli idik. Bölüyü düzdüm, evin tək oğullarını ayırdım, çünki bilirdim ki, itkimiz ola bilər. Onları döyüşə aparmadım. Hücum xəttinə qədər 1 kilometrə yaxın məsafə var idi. Ağdərə istiqamətində Çiləbird ərazisində döyüş başladı. Həm bizdən, həm də düşmən tərəfdən itkilər oldu. Düşmən minomyotla atırdı deyə məcbur olub şəxsi heyəti oradan sağa və sola uzaqlaşdırdım. Sonra özüm də uzaqlaşacaqdım. Birdən Əliağanı gördüm. Soruşdum ki, burada nə gəzirsən? Dedi, komandir, kömək eləməyə gəlmişəm, orda qala bilmədim. Üstümdə kaska, bronjilet, rabitə var idi deyə təxminən 10-15 metr gedəndən sonra yoruldum və oturdum. Ərazi çox səs-küylü idi: hər tərəfdən güllə səsləri gəlirdi. Xeyli yaralı və şəhid var idi. Belə vaxtda minomyot atılmasını eşidə bilmirsən, yalnız yaxına gələndə səsindən anlamaq olur. Mənim də üstümə gələn minomyotdan xəbərim olmayıb. Bir də onu gördüm ki, Əliağa "komandir!" deyib üstümə atıldı. Görünür, məni qucaqlayaraq qorumaq istəyirdi. Lakin sağ ayağıma ilişdi, arxası üstə üstümə düşdü. 1-2 saniyə ərzində minomyot partladı, ayağımı hiss eləmədim. Bir də gördüm, boğazıma qan axır. Onda başa düşdüm ki, başından yaralanıb. Özümü itirmədim, sürünə-sürünə, onu da çəkə-çəkə səngərə gətirdim. Əlimi bərk-bərk sıxmışdı...".

Əliağa Məmmədov Sabunçu rayonunun Maştağa qəsəbəsində dəfn olunub.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Əliağa Eldəniz oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.**

*Səhifəni hazırladı: Aliyə SƏMƏDOVA*

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ



Liqa sədri bildirdi ki, Avropanın da sosial təminat sistemi əvvəlki - "firavan" dövr üçün hesablanmış normativlərə "dözmür". Buna görə də onlar da pensiya yaşının artırılması ilə bağlı addımlar atmağa başlayıblar. Yəni problemlər fərqlidir. Bizdə Pensiya Fonduna yığım məsələsində problemlər varsa, onlarda əhalinin yaş tərkibi ilə bağlı problem var.

# Pensiya yaş həddinə yenidən baxılması gözlənilirmi?

**İnformasiya vasitələrində mütəmadi olaraq müzakirə mövzusu olan məsələlərdən biri ölkədə pensiya yaşının orta ömür həddinə müvafiqliyi ilə bağlıdır. İctimai təşkilatlar və ayrı-ayrı dövlət nümayəndələri tərəfindən də bu sahədə cəmiyyəti narahat edən məqamlar araşdırılaraq xarici təcrübələrə əsaslanan fikirlər, təkliflər irəli sürülür. Hətta millət vəkilləri belə bir neçə dəfə sosial islahatlar çərçivəsində pensiya yaş həddinə yenidən baxılmasını, bu limitin azadılmasını təklif ediblər.**

Biz də səslənən təkliflər, yeni layihələr barədə cəmiyyəti maraqlandıran sualları nəzərə alıb məsələyə aydınlıq gətirmək üçün Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədova müraciət etdik.

**S.Məmmədov ilk növbədə qeyd etdi ki, əmək pensiyasına görə yaşın azadılacağını gözləmirəm. Çünki pensiya fonduna yığımın aşağı olması, işləyən 5 milyon şəxsin cəmi 1 milyon 6 yüz mininin əmək müqaviləsi ilə işləməsi və digər bu kimi səbəblər buna maneə törədir. Məsələn, normalda 3 işləyənə 1 pensiyaçı düşməlidirsə, bizdə bu rəqəmlər arasındakı fərq çox yaxındır. Demək olar ki, 1 milyon 300 min pensiyaçı, 1milyon 600 min müqaviləli işçi var. Ona görə də yaş həddinin azadılması ilə bağlı yayılan fikirlərin, təkliflərin heç bir nəticə verməyəcəyini hesab edirəm.**

Həmsöhbətim əlavə etdi ki, pensiya yaşının azaldılması üçün "yığım" məsələsinin qaydaya salınması vacibdir: "Qeyri-formal əmək bazarı, ikili mühasibatlıq ləğv olunmalıdır. Bundan sonra artıq əhalinin orta ömür həddi ilə pensiya yaşı arasındakı fərqin optimal olması haqqında düşünmək olar.

**O həmçinin bizdə Avropadakı kimi yaşlı əhalinin sayı çox deyil,- dedi: "Ölkədə əhalinin 62 faizi 40 yaşından aşağı olanlardır. Yaşı 70-dən yuxarı olanlar ümumi əhalinin 4 faizini təşkil edir. İtaliyada isə bu rəqəm 22 faizdir. Bu o deməkdir ki, ölkədə pensiyaya çıxandan sonra orta yaş həddi 12 il deyil".**

**Sahib müəllim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən hazırlanan layihə haqqında da ətraflı məlumat verdi. Dedi ki, layihə zərərli və ağır əmək şəraitində çalışan şəxslər üçün bəzi güzəştlər nəzərdə tutur: "Belə şəxslərin pensiya təminatı ilə bağlı qanunvericiliyə 2017-ci ildə dəyişiklik edilib. Şərtlər və tələblər sərtləşdirilib. Pensiya hüququ əldə etmək üçün kişilər üçün 25 illik, qadınlar üçün 20 illik staj tələb olunur. Bunun da kişilər 12 il yarımını, qadınlar 10 ilin zərərli əmək şəraiti və ağır işlərdə işləmiş olmalıdılar. Bundan əlavə, onların fərdi hesablarındakı pensiya kapitalı minimum pensiya təminatına imkan verən məbləğdən az olmamalıdır. Bu isə kifayət qədər ağır şərtlərdir. Sovet vaxtında 1 və 2 saylı siyahılar vardı. 1 saylı siyahı daha ağır işlərdə çalışanları əhatə edirdi - onlardan kişilər 50 yaşına, qadınlar 45 yaşına çatdıqda və 10 il müvafiq işlərdə çalışmış olduqda pensiyaya çıxmaq hüququ əldə edirdilər. 2 saylı siyahıdakı işçilərə isə pensiya yaşından 5 il əvvəl pensiyaya çıxmaq imkanı tanınırdı. Bunların hamısı elmi tədqiqatların nəticələri əsasında müəyyən olunan müddətlərdir.**

Təəssüflər olsun ki, indi müvafiq şəraitdə işləmək müddətini kişilər üçün12 il yarıma, qadınlar üçünsə 10 ilə qaldırıblar. Yeni layihədə hətta bunun 15 ilədək artırılması nəzərdə tutulur. Hesab edirəm ki, çox yanlış yanaşmadır. Fikrimi layihə müzakirə olunanda da demişəm. Ümumiyyətlə, hazırkı qanunvericilik elədir ki, zərərli əmək şəraitli və ağır işlərdə çalışan şəxslərin əksəriyyəti pensiya hüququndan istifadə edə bilmədən həyatdan köçəcək. Pensiya yaşına çatanların isə qoyulan tələbləri təmin etməsi çətindir".

**Onu da qeyd edək ki, ƏƏSMN-in "Əmək pensiyaları haqqında" qanuna təklif etdiyi dəyişikliklər hələ qəbul olunmayıb. Bununla bağlı nazirlikdən verilən məlumata görə, layihə müzakirə mərhələsindədir.**

**Əsli ƏHMƏDOVA**

# İqtisadiyyatın dayanıqlı və dinamik inkişafına töhfə vermək,

*həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir*



**Ölkə başçısı İlham Əliyev iyulun 1-də Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib. Ümumi sahəsi 850 hektar olacaq Ələt Azad İqtisadi Zonasının 60 hektarında layihələndirmə artıq başa çatıb və inşaat işlərinə start verilib. Bəs Azad İqtisadi Zona niyə Ələtdə yaradılır? İnvestorları Azad İqtisadi Zonaya nə cəlb edəcək? Onlar nəyə görə məhz buraya sərmayə qoyacaqlar? Suallarımızı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının baş müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov cavablandırıb. Bildirib ki, dünya standartlarına cavab verən Beynəlxalq Dəniz Limanının yaxınlığında yerləşən Ələt Azad İqtisadi Zonasının yaradılması Azərbaycanın Avrasiyanın orta xətti üzərində yerləşən Şərqlə Qərbi, Cənubla Şimalı birləşdirən nəqliyyat qovşağının mərkəzi iştirakçılarından birinə çevirəcək, ölkəmizin geoiqtisadi və strateji nəqliyyat statusunu daha da gücləndirəcək. Azad iqtisadi zonalar gömrüksüz və ya imtiyazlı ixrac-idxal rejimi tətbiq edilən, digər ölkələrin və bölgələrin valyuta-maliyyə vəziyyəti ilə fərqlənən, daha sərfəli iqtisadi və coğrafi mövqeyə malik olan ölkə ərazisi və ya onun hər hansı bir hissəsidir. Azad iqtisadi zonalarda yerləşən təsərrüfat subyektləri xüsusi qanunvericilik normaları altında fəaliyyət göstərir və onların bu fəaliyyəti ölkənin xüsusi qanunları ilə tənzimlənir. Azad iqtisadi zonaların bir sıra xarakterik xüsusiyyətləri var. Bu zonalarda müxtəlif növ güzəşt və stimullar tətbiq edilir. Yəni xarici ticarət zamanı ixrac-idxal rüsumları azaldılır və ya ləğv edilir. Bundan başqa, azad iqtisadi zonalara büdcədən subsidiyalar ayrılır, güzəştli dövlət kreditləri, torpaqdan və əmlakdan istifadəyə görə imtiyazlı icarə haqları verilir, müəssisələrin qeydiyyatdan keçirilməsi prosedurları, qeyri-rezidentlərin ölkəyə giriş-çıxışı sadələşdirilir.**

Z.Məmmədov xüsusilə qeyd etdi ki, heç də yaradılan bütün iqtisadi zonalar qarşılarına qoyulan məqsədləri reallaşdıra bilmir. Hazırda dünyada qlobal miqyasda sayılıb-seçilən azad iqtisadi zonalar az saydadır. Birləşmiş Ərəb Əmirliklərindəki Dubay iqtisadi zonasını, Çindəki müxtəlif azad zonaları misal göstərmək olar. Lakin əminliklə deyə bilərik ki, Ələt Azad İqtisadi Zonası da beynəlxalq miqyasda aparıcı, tanınmış azad iqtisadi zonalardan birinə çevriləcək. Bu zonanın yaradılmasında əsas məqsəd həm də qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Ələt Azad İqtisadi Zonasının yaradılması sözsüz ki, ölkəmizə mühüm iqtisadi-siyasi dividentlər gətirəcək. Ən əsası milli iqtisadiyyatın qlobal iqtisadi sistemə inteqrasiyasında, aparıcı şirkətlərin milli iqtisadiyyatlara sərmayə qoymasında, ölkənin iqtisadi və maliyyə cəhətdən güclənməsində azad zonalar xüsusi əhəmiyyətə malikdir. Azərbaycan isə son zamanlar dünyanın aparıcı nəqliyyat qovşağına və geoiqtisadi mərkəzlərindən birinə çevrilməyi bacarıb və Böyük Britaniya, Çin, Əfqanıstan, Türkmənistan, Qazaxıstan, İran, Rusiya və digər bir çox dövlət rəsmi Bakının Xəzərin qərb sahilllərində qurmaqda olduğu meqalayihələrdə iştirak etmək istədiyini dəfələrlə bəyan edib.

**Z.Məmmədov onu da qeyd etdi ki, düzgün müəyyənləşdirilmiş strategiya, daxili imkanlardan düşünülmüş şəkildə istifadə edilməsi nəticəsində Azərbaycanın qədim İpək Yolu boyunca ticarət mərkəzi kimi tarixi mövqeyini bərpa etməsi, Şərqlə Qərbi, habelə Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin yolu üzərində yerləşməsi respublikamızın Avrasiyanın regional mərkəzinə çevrilməsinə, qloballaşma prosesləri baxımından onun həm regional, həm də beynəlxalq layihələrdə rolunu və əhəmiyyətini daha da artırır. Qeyri-neft sektorunda həyata keçirilən iri-miqyaslı islahatların, uğurla reallaşdırılan nəhəng nəqliyyat-kommunikasiya layihələrinin, o cümlədən azad iqtiasdi zonaların yaradılmasının vahid məqsəd və strategiyada birləşdirilməsi ölkəmizin, eləcə də regionun gələcək inkişafına böyük töhfələr verir. Beləliklə, azad iqtisadi zona Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə Xəzər hövzəsində ən böyük logistika mərkəzi olaraq fəaliyyət göstərəcək. Azad İqtisadi Zona yaxın gələcəkdə Avropa, Türkiyə, İran, Rusiya, Çin, Orta Asiya, Yaxın Şərq dövlətləri üçün Bakı Beynəlxalq Dəniz Ticarət Limanının iqtisadi əhəmiyyətini daha da artıracaq. Bu o deməkdir ki, artıq yeni Bakı limanı Avrasiyanın ən əsas nəqliyyat qovşaqlarından birinə çevrilir.**

**Gülöyşə MƏMMƏDLİ**

# Ölkə vətəndaşları tərəfindən valideynləri olan uşaqların övladlığa götürülməsinin xüsuyyətləri

*Hər bir uşaq özünün fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsi hüququna malikdir (BMT-nin"Uşaq hüquqları haqqında" Konvensiyası maddə,27)*

**Uşaq hüquqlarının müdafiəsi ilə bağlı ölkəmizdə əhatəli normativ baza mövcuddur. Ölkəmiz Ailə Məcəlləsi, "Uşaq hüquqları haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarından, fərman və müvafiq Qaydalardan ibarət milli qanunvericilik bazasını yaratmaqla bərabər, həm də BMT-nin"Uşaq hüquqları haqqında" Konvensiyasına, "Ölkələrarası övladlığagötürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya, "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair" Fakültativ Protokoluna qoşulmuşdur.**

Hər bir uşağın ailədə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Belə bir deyim var: "Övlad işıqdır". Amma işığın parlaması, onun mənəvi və fiziki inkişafı, cəmiyyətin layiqli bir üzvü olması üçün ailənin - hər halında onu başa düşən dayağının olması əsas amillərdən biri və birincisidir. Çünki bəşər tarixinə nəzər salınarsa, ailə tərbiyəsindən yüksək tərbiyə formasına rast gəlinməz. Övladlığa götürmə uşağın ailədə yaşamaq, valideynlərdən qayğı görmək hüququnun həyata keçirilməsində böyük rol oynayır.

Qanunverciliklə (Ailə Məcəlləsində, "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nda) övladlığa götürmə qaydası dəqiq müəyyən edilmiş, "Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 29 oktyabr 2009-cu il tarixli 1 nömrəli qərarı ilə qanunvericiliyin məhkəmələr tərəfindən düzgün tətbiq olunması və vahid məhkəmə təcrübəsinin formalaşması məqsədilə tövsiyələr verilmişdir.



**Qanunvericiliklə övladlığa götürmə, uşağın mənafeyi üstün tutulmaqla, müəyyən istisnalarla həyata keçirilir:**

- Uşağın doğumu Ədliyyə Nazirliyinin müvafiq qeydiyyat şöbələrində qeydə alındıqdan sonra övladlığa götürməyə yol verilir.

- Bir uşaq iki şəxs tərəfindən (ər-arvaddan başqa) övladlığa götürülə bilməz.

- Ər (arvad) özünün nikahdan olmayan uşağını və ya arvadının (ərinin) uşağını övladlığa götürə bilər.

- Uşağın mənafeyinə cavab verən hallar istisna olmaqla, qardaş və bacıların müxtəlif şəxslər tərəfindən övladlığa götürülməsinə yol verilmir.

Övladlığa götürmə üç mərhələdə həyata keçirilir:

- övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması;

- övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi;

- övladlığa götürmə barədə məhkəmə qərarının qəbul edilməsi.

**Ölkə rəhbərinin "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 10 dekabr 2018-ci il tarixli 393 saylı Fərmanına əsasən, övladlığa götürülən uşaqların və onları övladlığa götürməyi arzu edən şəxslərin vahid uçotunun elektron qaydada aparılmasını, övladlığa götürmənin əsaslandırılmasını və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəy verilməsini, övladlığa götürmə sahəsində vahid nəzarəti Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik) həyata keçirir. Bu məqsədlə Nazirliyin aparatında və DOST Agentliyində övladlığa götürmə ilə məşğul olan struktur bölmə yaradılmışdır.**

Nazirlik vahid informasiya bazasını yaratmaq məqsədilə elektron informasiya sistemində "e-sosial" internet portalı üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu elektron formada aparır.

Qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları), eləcə də ögey ata (ögey ana) tərəfindən övladlığa götürmə zamanı vahid informasiya bazasında övladlığa götürən şəxslərə dair yalnız onların məhkumluğu və sağlamlıq vəziyyəti haqqında məlumatlar əks olunur.

**Ölkə vətəndaşları tərəfindən övladlığa götürmə barədə müraciət necə olmalıdır və hansı sənədlər təqdim edilməlidir?**

**Övladlığa uşaq götürmək istəyən şəxs notariusa müraciət etdikdən sonra notarial qaydada təsdiq edilən ərizə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Ədliyyə Nazirliyi) "Elektron notariat" informasiya sistemi vasitəsilə altsistemə ötürülür. Bundan sonra övladlığa götürmək istəyən şəxs övladlığagötürmə ilə bağlı müraciət etmək üçün Nazirliyin "e-sosial" internet portalında qeydiyyatdan keçərək öz şəxsi kabinetini yaradır. Ərizə altsistemə daxil edildiyi andan övladlığa götürmək istəyən şəxs uçota alınır.**

**L.ACALOVA,
AHİK-in Hüquq şöbəsinin müdiri**

(Davamı növbəti sayımızda)

# Qanunvericilik təşəbbüslərini bəyənməyi xahiş edirik



**Biz sərt qənaət rejiminə qayıda bilmərik, keçmişin səhvlərindən qaçmaq lazımdır. İnsanların rifahına istiqamətlənmiş və ÜDM çərçivəsindən kənara qeyri-kafi göstərici kimi çıxan yeni iqtisadi paradiqma yaratmalıyıq. Sosial idarəetmənin iqtisadiyyatın idarə edilməsinə tam inteqrasiyasına əmin olmaq üçün artıq indidən maliyyə qaydalarının radikal islahatlarına başlamalıyıq.**

**"COVID-19 ilə bağlı fövqəladə vəziyyətin idarə edilməsi iş yerlərinin və müəssisələrin qorunması, əmək bazarımızın sabitliyinin artırılması üçün mühüm əhəmiyyət kəsb edir". Bunu Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luka Visentini Sloveniyanın paytaxtı Lyublyanada keçirilən "EPSCO" qeyri-rəsmi toplantısında çıxışında bildirib.**

L.Visentini deyib ki, tədricən pandemiyadan çıxdığımızda, işsizliyin kəskin artımının qarşısını almaq üçün bir sıra vacib tədbirlər görülməlidir. İş yerlərinin, əməkhaqqının və əmək şəraitinin, habelə sosial müdafiə sistemlərinin möhkəmləndirilməsi üzrə fövqəladə tədbirlər davam etdirilməlidir.

Bundan əlavə, özünüməşğul və qeyri-rəsmi işçilər də daxil olmaqla, bütün işçi kateqoriyalarının əhatə dairəsini genişləndirmək lazımdır.

İş yerində bədbəxt hadisələrin artmasının və əmək şəraitinin pisləşməsinin qarşısı alınmaqla işçilərin işə qayıtmasına nəzarət etmək lazımdır. İndi biz daha davamlı, inklüziv və ədalətli bərpanı planlaşdırmalıyıq.

Əmək nazirləri inklüziv və sosial ədalətli milli bərpa planlarının yaradılmasında mərkəzi rol oynamalıdırlar. Burada sosial hüquqların Avropa dayaqları prinsiplərinə riayət olunmalı, sosial cədvələ hörmətlə yanaşılmalı və sosial tərəfdaşların tam iştirakı təmin edilməlidir.

Davamlı bərpa ədalətli keçidə əsaslanmalıdır. Bacarıqlar iqlimi və rəqəmsal keçidi idarə etmək üçün vacibdir.

Əmin olmalıyıq ki, investisiyalar bölgədəki keyfiyyətli iş yerləri yaradır və onların pozulduğu regionda icmalar, yerli hakimiyyət orqanları və sosial tərəfdaşlar sosial dialoq vasitəsilə ədalətli keçiddə iştirak etsinlər, sosial müdafiə sistemləri isə bu prosesləri səmərəli şəkildə müşayiət etsin.

Sərmayələrin keyfiyyətli iş yerlərinin açılmasına təsirini ölçməli, sosial təhlükəsizlik şəbəkələrini gücləndirməli və qənaətə əsaslanan struktur islahatlarından çəkinməliyik, əməkhaqqını artırmaq və sosial yaxınlaşmağı inkişaf etdirməliyik.

**Bu mənada biz bütün nazirlərdən Avropa İttifaqının ədalətli minimum əməkhaqqı, gender ödənişinin şəffaflığı və platform işi üzrə yeni işə başlamış qanunvericilik təşəbbüslərini dəstəkləməyi xahiş edirik.**

# Sənədsiz miqrantlara iş icazəsini dəstəkləyirlər

**Avropa Həmkarlar İttifaqları Konfederasiyası (ETUC) Belçika həmkarlar ittifaqlarının Brüsseldə 400-dən çox insanın aclıq aksiyasına son qoymaq məqsədilə qanunsuz miqrantlara iş icazəsi çağırışlarını dəstəkləyir.**

On illədək kölgə iqtisadiyyatında işləmək məcburiyyətində qalan bir qrup qanunsuz miqrant leqallaşdırma tələblərinə diqqət çəkmək üçün mayın 23-də mitinqə başladı.

"FGTB" və "CSC" həmkarlar ittifaqları belçikalı işəgötürən təşkilatları ilə birlikdə hökumətə qeyri-leqal miqrantlara peşə çatışmazlığı ilə bağlı iş icazəsi verməyi təklif ediblər. "La Libre" qəzetində birgə məqalədə qeyd olunur:

"Brüsseldə, eləcə də Flandriyada və Valoniyada işəgötürənlər çarəsiz şəkildə elektrik, santexnik, çörəkçi, qəssab, daş kəsici, yük maşını sürücüsü və tibb bacıları axtarırlar. COVID-19 böhranı onsuz da işçi qüvvəsinin çatışmazlığı olan sektorlarda kəskin defisit yaratdı.

**Bu, ETUC və Avropa işəgötürənlər təşkilatlarının işəgötürənlərə qarşı sanksiyalara dair direktivə uyğun olaraq işçilərin sənədsiz müdafiəsini yaxşılaşdırmaqda israr etməsi üçün Avropa Komissiyası ilə görüşdüyü gün baş verib.**

O, üzv dövlətlərin istismarı dayandırmaq üçün kifayət qədər iş görmədiklərini göstərən direktivin yerinə yetirilməsi ilə bağlı Avropa İttifaqı Agentliyinin əsas hüquqlar üzrə hesabatını izləyir və belə qənaətə gəlir: "İşçilər öz hüquqlarını və ya necə şikayət edəcəklərini bilmirlər, hətta onlar bunu etdikdə belə, lazımı təzminat ala bilməzlər".

**ETUC Komissiyanı sənədsiz mühacir işçiləri istismar edən işəgötürənlərin lazımı sanksiyalara məruz qalmasını və işçilərin deportasiyadan qorxmadan pozuntuları bildirməsini təmin etmək, əməkhaqqından və yaşayış icazəsi verilməsindən imtina edildikdə lazımı təzminat almasını təmin etməyə çağırdı".**

ETUC-un katibi Lüdovik Voyet deyib: "Brüsseldəki aclıq aksiyası ilk növbədə onlara hörmət edilməsini istəyən sənədsiz işçilərin insan haqları ilə əlaqədardır. Onlar burada illərlə yaşayırlar, bəzən də on illərdir ki, övladları bizim övladlarımız ilə birlikdə məktəbə gedir. Lakin həbs və deportasiya qorxusu ilə yaşayırlar və saatda 3-5 avro üçün işləyirlər.

Bunlar aşpazlar, çörəkçilər, mexaniklər, qarsonlar, təmizlikçilər və ya kənd təsərrüfatı, inşaat, xidmət və ev işçiləridir. Onlar hətta az ödənişli və ya daha pis bir iş barədə şikayət edə bilməzlər. Sənədsiz işləyən qadınlar təqiblərə və ya cinsi zorakılığa məruz qalırlar, çünki onlar işlərini itirəcək və deportasiya riski ilə üzləşəcəklər.




Belçika hökuməti əsas insanpərvərlik nümayiş etdirməli, həmkarlar ittifaqları ilə birlikdə bu tətilin kimsə ölməzdən əvvəl dayandırılması üçün təklif olunan praktiki qərarlar üzərində işləməlidir. Bütün Avropada miqrasiya siyasətinin köklü şəkildə dəyişdirilməsinə ehtiyacımız var ki, bu da işəgötürənlərin həssas insanları ucuz işçi qüvvəsi kimi istifadə etməsinə, yaşayış və iş üçün müntəzəm marşrutlar yaratmasına imkan verməyəcəkdir.

**Daimi tənzimləmə həm miqrantların, həm də yerli işçilərin əməkhaqlarının və əmək şəraitinin azaldılmasının qarşısını alır".**

# Konfransda bir sıra qətnamə və tədbirlər planı qəbul edilib




**İyulun 5-6-da Avropanın 11 milyondan çox müəllim və digər təhsil işçisini təmsil edən təhsil işçiləri həmkarlar ittifaqı qitədə təhsil sektorunun gələcəyini müzakirə etmək üçün onlayn formatda toplaşıb. Nümayəndələr iqlim dəyişikliyi, bərabərlik və inteqrasiya, süni intellekt və rəqəmsallaşdırma sahəsi ilə bağlı fikir mübadiləsi aparıb, bir sıra tələblər irəli sürüblər.**

Konfransda Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsi (ETUCE) COVID-19-dan sonra bərpa prosesi zamanı müəllim peşəsinin mövcud və gələcək problemlərinin həlli strategiyalarını müzakirə ediblər. ETUCE-ə və onun üzv təşkilatlarına cari mandat ərzində öz iş proqramlarını həyata keçirmək üçün möhkəm əsas verən mühüm proqram sənədləri qəbul edilmişdir.

**Qəbul edilmiş qətnamə və fəaliyyət planları müəllimlərin və digər təhsil işçilərinin işinə kömək edəcək və bu pandemiyadan həmkarlar ittifaqlarının potensialının daha da gücləndirilməsi və müəllimlərin hüquqları uğrunda daha fəal mübarizə aparmaq üçün imkan kimi istifadə etməyə təşviq edəcəkdir. Təhsil sektoru bərpa planlaşdırılmasında əsas rol oynamağı nəzərdə tutur və qəbul edilən strategiyalar bu səylərı dəstəkləyir.**

# Həmkarlar ittifaqlarının sayında artım

**Pandemiya dövründə dünyada həmkarlar ittifaqlarının sayında 26 faiz artım qeydə alınıb ki, bu da əsasən işçilər və işəgötürənlər arasında sosial dialoq institutunun möhkəmləndirilməsi sayəsində baş verib. Eyni zamanda həmkarlar ittifaqları təmsilçilərinin 89 faizi üçtərəfli məsləhətləşmələr prosesində fəal iştirak etdiyini bəyan ediblər. Bu barədə Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən nəşr olunan Beynəlxalq Əmək Araşdırmaları jurnalının növbəti sayında deyilir. İyulun 12-də "COVID-19 və Bərpa: daha yaxşı bir gələcəyin qurulmasında həmkarlar ittifaqlarının rolu" mövzusunda keçirilən təqdimatda müəllflər, tədqiqatçılar, alimlər, BƏT-in Avropa və Mərkəzi Asiyadakı nümayəndələri və həmkarlar ittifaqlarının liderləri iştirak ediblər.**

International Labour Organization

BƏT-in ekspertlərinin məlumatına görə, bu gün xidmət sahəsinin 1,7 milyard işçisi risk zonasında qalır ki, bu da digər fəaliyyət sahələri arasında ən böyük göstəricisi olan insanların COVID-19 ilə yoluxma mənbəyi ola bilər. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, infeksiya hallarının təxminən 14 faizi tibb işçilərinin payına düşür. Ümumiyyətlə, pandemiyadan əvvəl infeksiyalar səbəbindən ölənlərin sayı peşə xəstəliklərindən (2,4 milyon ölüm) ölənlərin sayının 9 faizini təşkil edirdi. Pandemiya ilə bağlı oxşar statistika hələ yoxdur, lakin iş yerində infeksiyalar ilə yoluxma sayı 16 milyona qədər artmışdır. Jurnalda həmkarlar ittifaqları mühitində gender bərabərsizliyi problemlərinə böyük diqqət yetirilir. Belə ki, BƏT-in ekspertlərinin fikrincə, qadın həmkarlar ittifaqı fəalları evdə, istehsalatda və həmkarlar ittifaqının daxilində daha çox yüklənməni öz üzərlərinə götürməli oldular.

**Jurnalda verilən proqnozlara görə, pandemiya dünyada təxminən 47 milyon qadının həddindən artıq yoxsulluq zonasına girəcəyinə gətirib çıxara bilər, bu kateqoriyanın sayı 435 milyon adama çatacaq. Mütəxəssislər dünyada həmkarlar ittifaqı hərəkatının inkişafında rəqəmsallaşmanın xüsusi əhəmiyyətini vurğulayırlar. Bu, xüsusilə gənclərin əhatə dairəsini artırmağa kömək edir.**

# Autsorsinq və bərpa üçün səfərbər olmaq



**İtaliyada elektrik enerjisi və tullantıların utilizasiyası sektorlarında fəaliyyət göstərən həmkarlar ittifaqları iyunun 30-da onların tətil aksiyalarının dəstəklənməsini çox yüksək səviyyədə olduğunu bildiriblər. Həmkarlar ittifaqları Satınalma Məcəlləsinin 177-ci maddəsini istisna ediblər. Çünki iddia edirlər ki, o, hər yerdə xarici podratçıların onların sektorlarında cəlb olunmasını tələb edir ki, bu da iş yerləri və əmək şəraiti üçün ciddi təhlükə yaradır.**

Bildirilir ki, əgər maddə ləğv olunmasa, bu sahələrin parçalanması güclənəcək, bu da qapalı iqtisadiyyatı və aşağı karbonlu enerji sektoru ilə bağlı təşəbbüslərin pozulmasına gətirib çıxaracaqdır. Eyni zamanda üç əsas konfederasiya da COVID-dən sonra bərpa problemlərini həll etmək məqsədilə hökumətə təzyiq üçün səfərbər olunur.

# Yeni iş hüquqlarını alqışlayırlar

**İngiltərədə səhiyyə işçiləri hesab edirlər ki, yeni çevik iş müqaviləsi bir çox əməkdaşlar üçün iş və şəxsi həyat arasındakı balansı yaxşılaşdırmağa və işçi heyətini yaxşılaşdırmağa kömək edəcəkdir. Bununla yanaşı, onlar Sazişin tam yerinə yetirilməsini təmin etmək üçün kadrların sayının artırılmasının vacibliyini vurğulayırlar. Müqavilənin yeni şərtləri işçilərə imkan verəcək:**




*-onların işə götürülməsi anından çevik iş qrafikini tələb etmək;*

*-hər il çevik iş üçün məhdudiyyətsiz sayda ərizələr etmək;*

*-sorğuların əsaslandırılması və ya konkret səbəb göstərilmədən ərizələr təqdim etmək;*

*-menecerlərin bütün mümkün həll yollarının araşdırılmasını təmin etmək üçün lazım olan bir prosesə daxil olmaq.*

**Səhifəni hazırladı: Azər MUSTAFAYEV**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

Son səhifə

CÜMƏ AXŞAMI, 15 İYUL 2021-Cİ İL / № 26 (1244)



# Gözəl təbiət-maraqlı əyləncəli proqramlar





**Təbii Sərvətlər və Ekologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi iyulun 3-4-də və 10-11-də Milli Hidrometeorologiya Xidməti və Hidrometeoroloji Proqnozlar Bürosunun 100 əməkdaşının, eləcə də onların övladlarının Quba rayonunda yerləşən "Güney meşə" İstirahət Mərkəzinə turist səfərini təşkil etmişdir. Səfərin daha maraqlı olması üçün Respublika Komitəsinin əməkdaşları əyləncəli proqram da hazırlamışdı. Gözəl təbiət, təmiz hava və idmanın müxtəlif növləri üzrə yarışlar hər bir turistin ürəyincə olmuşdur.**





Turistlər kollektiv şəkildə gəzintiyə aparılmış, təbiətin ləzzətini çıxarmışlar.

**Növbəti həftələrdə Nazirliyin xidmətinə daxil olan digər müəssisələrin işçilərini də belə yaddaqalan turist səfərləri gözləyir. Respublika Komitəsindən bildirdilər ki, turist səfərləri yay fəslinin sonuna qədər davam edəcək.**

# Sıralarımızı əməli işimizlə genişləndiririk



**Kənd Təsərrüfatı Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) sədri Fuad Məmmədov müxbirimizlə söhbətə komitənin çox da uzaq olmayan tarixi barədə qısa statistik məlumatla başladı. Dedi ki, komitəmiz 2019-cu ilin oktyabr ayında təsis olunub. 10 mindən çox üzvü və 89 ilk təşkilatı var. Sonra yeri gəlmişkən qeyd etdi ki, ilk təşkilatlarla sıx əlaqədə işləyirik. Bu əlaqələr daimi informasiya mübadiləsi əsasında qurulur. Tərtib etdiyimiz cədvələ əsasən, BHİK-in əməkdaşları ilk təşkilatlara gedir, əyani köməklik göstərir, qərar və təkliflərimizi onların diqqətinə çatdırır. İlk təşkilatların fəaliyyəti, təklifləri, problemləri komitəmizin iclaslarında müzakirəyə çıxarılır, konkret qərarlar qəbul edilir. İlk təşkilatlarla iş fəaliyyətimizin əhəmiyyətli tərkib hissəsidir, lakin hamısı deyil. Komitə hələ ilin əvvəlində prioritet istiqamətlər müəyyənləşdirib təsdiqləyir. İstiqamətlər isə kifayət qədər çoxşaxəlidir. Buna yerlərdən müraciətlərin qəbulu və cavablandırılması, yardımların ayrılması, müharibə iştirakçılarına, qazilərə, şəhid ailələrinə dəstək göstərilməsi, işçilərin əmək hüquqlarının, sağlamlıqlarının qorunması, maddi yardımların verilməsi, istirahətlərinin təşkili, idman yarışlarının, müsabiqələrin keçirilməsi və sair daxildir.**

Məsələn, son altı ayın statistikasına nəzər salsaq görərik ki, Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə əmək hüquqlarının qorunması ilə bağlı 15 yazılı və şifahi müraciət daxil olub. Bu müraciətlər BHİK tərəfindən araşdırılıb. İşəgötürənlə, ilk həmkarlar ittifaqı təşkilatnın sədri və müraciət edən şəxslə görüşlər keçirilib. Beləliklə, sonda şikayətçilərin əmək müqavilələrinə xitam verilməsinin qarşısı alınıb, əmək məzuniyyətlərində yaranmış problemlər aradan qaldırılıb, əməyin mühafizəsi sahəsində yaşanan çatışmazlıqların sıfıra endirilməsi üçün tövsiyələr edilib.

**Fuad müəllim bildirdi ki, elə işçilər var, əməkhaqları bəzən ailələrinin tələbatı qədər olmur. Biz onları da nəzərə alırıq. Kollektiv müqaviləyə uyğun olaraq, həmin işçilər ilk təşkilatlar tərəfindən müəyyənləşdirilir və komitəmizə yazılı müraciət edilir. Məlumat üçün deyim ki, ötən 6 ayda 82 nəfərə maddi yardım göstərilib. Bununla yanaşı, Ağstafadan olan 50 şəhid ailəsinə Novruz bayramı münasibətilə bayram sovqatı göndərilib. Kürdəmirdə 35 şəhid ailəsinə Ramazan bayramı ərəfəsində sovqatlar verilib.**

Nazirliyin mərkəzi aparatının 210 əməkdaşının COVID-19 infeksiyası ilə əlaqədar testdən keçirilməsini təşkil etmişik.

Üzvlərin istirahətinin qayğısına qalmaq başlıca məqsədlərimizdəndir. Respublikanın ərazisində fəaliyyət göstərən müalicə ocaqlarına və istirahət mərkəzlərinə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən 152 işçiyə ötən altı ay ərzində yollayışlar verilib. Onlar "Bilgəh", "Abşeron", "Qaranquş", "Günəşli", "Şıx", Naftalanda yerləşən sanatoriyalarda müalicə almışlar.

**Yay aylarında nazirliyin və nazirliyə tabe qurumların əməkdaşlarının ölkənin müxtəlif səfalı guşələrinə ikigünlük səfərləri təşkil olunur.**

Kənd təsərrüfatının inkişafına böyük töhfələr verən alim və mütəxəssislərimizin yubileylərini xüsusi qeyd edir, hazırladığımız plaketlər həmin insanlara xatirə hədiyyəsi kimi təqdim olunur. Bizim təşkilat şöbəsində yubiley yaşı tamam olan mütəxəssislərin siyahısı var. Həmin siyahı üzrə təbrikolunma işini davam etdiririk.

**Həyata keçirdiyimiz tədbirlər sahə işçilərinin təşkilatımıza marağını artırıb. Bu maraq xüsusilə özəl təşkilatlar arasında daha böyükdür. Son aylarda "P-Aqro" MMC, "Şahdağ Fermer Təsərrüfatı" MMC, "Qrant-Garden" MMC, Aqrar Sığorta Fondu, Qax İpəkçilik və Damazlıq, "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC, "CAPARXANA KFT" MMC, "Kroun - Ko" MMC də, ümumilikdə 20-dən çox müəssisədə ilk həmkarlar ittifaqı təşkilatı yaradılıb. Bir çox özəl müəssisədə həmkarlar ittifaqı təşkilatlarının yaradılması ilə bağlı danışıqlar aparılır.**

# Müsabiqələr və yarışlar

**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (TİAHİ) Şəki Rayon Komitəsinin və Şəki Şəhər Təhsil Şöbəsinin təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəblərinin Azərbaycan dili və ədəbiyyat müəllimləri arasında "Nizami haqqında düşüncələrimiz" mövzusunda inşa-yazı müsabiqəsi keçirilib. 54 nəfər təhsil işçisinin qatıldığı müsabiqədə münsiflər heyətinin qərarına əsasən, şəhər 10 №-li tam orta məktəbin direktoru Billur Abdulsəlimli və Qoxmuq kənd tam orta məktəbin müəllimi Zəhra Kərimova qalib elan olundular. Şəhər 18 №-li tam orta məktəbin müəllimi Yeganə Muxtarova, İnçə-Zunud kənd tam orta məktəbin müəllimi Zülfiyyə Əzimova, Aşağı Göynük kənd tam orta məktəbin müəllimi Səadət Əliyeva və şəhər 6 №-li tam orta məktəbin müəllimi Gülşən Yüzbaşıyeva II yerə, Fizika-riyaziyyat təmayüllü liseyin müəllimi Pərvin Həşimova, İbrahimkənd kənd tam orta məktəbin müəllimi Xatirə Məhyəddinova, Köndələn kənd tam orta məktəbin müəllimi Aytən Yusifova III yerə, digər 15 nəfər müəllim isə həvəsləndirici yerlərə layiq görüldülər.**






Qaliblər rayon komitəsinin və şəhər təhsil şöbəsinin Fəxri fərmanları və hədiyyələri ilə təltif olundular.

***

**TİAHİ Şəki Rayon Komitəsi daha bir tədbirə təşkilatçılıq edib. Azərbayacan Silahlı Qüvvələrinin yaranmasının 103 illiyinə və Vətən müharibəsindəki Qələbəyə həsr olunmuş voleybol yarışı keçirib. Rayonun təhsil müəssisələrinin kişilərdən ibarət komandaları arasında baş tutan yarışda 11 məktəbin vaksinasiyadan keçmiş komanda üzvləri iştirak edib.**

Yarışın yekununda Şəki Dövlət Regional Kollecinin komandası I yeri, Qoxmuq kənd tam orta məktəbin komandası II yeri, şəhər 8 №-li tam orta məktəbin komandası III yeri, şəhər 9 №-li tam orta məktəbin komandası isə IV yeri tutub.

**Qalib komandalar Şəki Rayon Komitəsinin Fəxri Fərmanı və hədiyyələri ilə təltif olunub.**

# Hüquq məsləhətxanası

**Miras nə vaxt və harada açılır? Miras deyəndə nə başa düşülür?**

**Şahin VƏLİYEV, Qazax rayonu.**

- Mülki Məcəllənin 1151-ci maddəsinə əsasən, mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamədək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

Mirasa ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölüşməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri daxildir.

Miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır. Miras qoyanın öldüyü gün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı gün sayılır.

Mülki Məcəllənin 1147-ci maddəsinə görə, miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın olduğu yer mirasın açıldığı yer sayılır.

Əgər miras müxtəlif yerlərdədirsə, mirasın açıldığı yer daşınmaz əmlakın və ya onun qiymətli hissəsinin olduğu yer, daşınmaz əmlak olmadıqda isə daşınar əmlakın və ya onun əsas hissəsinin olduğu yer sayılır.

**15 yaşına çatmamış şəxsi işə götürənlərə hansı cəza nəzərdə tutulur?**

**Samil VƏLİYEV, Bakı şəhəri.**

- Əmək Məcəlləsinin 46-cı maddəsinə əsasən, əmək müqaviləsi on beş yaşına çatmış fiziki şəxslərlə bağlanıla bilər. 15 yaşına çatmamış şəxslərlə bağlanılan əmək müqaviləsi etibarsız sayılır və belə müqaviləni bağlayan işəgötürən inzibati məsuliyyətə cəlb olunur. Bu məsuliyyət İnzibati Xətalar Məcəlləsinin 192.8-ci maddəsində göstərilib. Belə ki, işəgötürən tərəfindən 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsinə görə-

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

**Qəzetimizin növbəti sayı 29 iyul 2021-ci ildə dərc olunacaq.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova, Rəyasət Heyətinin üzvləri və aparat işçiləri Bakı şəhər "Cəngi" Estrada Folklor Ansamblının Həmkarlar İttifaqı Komitəsinin sədri

**SEVİNC NƏZƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru Hüseyn Qaraşov və kollektivi AHİK-in Zəhmətkeşlərin əməyinin və sosial-iqtisadi mənafelərinin müdafiəsi şöbəsinin müdiri Çingiz Tağıyevə bacısı

**SƏİDƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7693
Sifariş: 1313
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
www.ulfet-az.com
Sərbəst qiymət